# Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

5 NOYABR 2019-cu il

№ 196 (4094)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

■ səh. 5 ■

# QARABAĞ PROBLEMİNİN HƏLLİ ÜZRƏ ERMƏNİSTANDA REFERENDUM KEÇİRİLƏCƏK(?)...

Prezidentin icra başçıları ilə yeni iş üsulu - təsadüfi adamların təyinat risqinin qarşısı alınır...

■ səh. 3 ■

Bütün icra başçıları Prezidentin müəyyən etdiyi yeni iş üsuluna keçsə - kəndlərdə, məhəllələrdə olmaq, kabinetdə oturmamaq...

■ səh. 3 ■

ABŞ Konqresinin "genosid qərarında" iki yəhudi təşkilatının lobbiçiliyi - müasir yəhudilərin ata-babalarına qarşı erməni cinayətləri nə tez unuduldu...

■ səh. 5 ■

Ermənistan 102-ci bazanın dəstəyindən məhrum olur

■ səh. 9 ■

Milli Şuranın ABŞ-da sanksiya çağırışlarına Azərbaycan cəmiyyətinin reaksiyası...

■ səh. 7 ■

Oqtay Gülalıyevin xaricdə müalicəsi zəruridirsə... Prezidentə niyə müraciət edilmir...

■ səh. 4 ■

Bakı İrəvanın Tehran ümidləri üzərindən xətt çəkdi - "Yaddan çıxmış ölkəyə çevriləcək..."

■ səh. 10 ■

Uşaq qidaları ilə bağlı klinikalarla firmaların qeyri-şəffaf sövdələşmələri...

■ səh. 15 ■



■ səh. 2 ■

## Prezident Eldar Əzizova Bakının rayon icra başçıları ilə bağlı təsirli səlahiyyət verdi

*«...sərəncamlar qanunsuz verilir, yerlər zəbt edilir»...*



**Azərbaycanın xarici borc məsələsi dünya reytinq qurumlarını «ayağa qaldırıb»**

■ səh. 11 ■

**Şübhəli yollarla dərəcə almış alimlərin elmi adlarının geri alınması mexanizmi gündəmdə...**

■ səh. 12 ■



**Qardaş Türkiyədə Azərbaycan mühacirəti - Stalin dövründən qalmış «termin» niyə dəyişdirilmir...**

■ səh. 6 ■

■ səh. 8 ■

Azərbaycanın radikal müxalifəti ilə ermənilərin ABŞ-da sinxron fəaliyyəti...



■ səh. 4 ■

"Əli Nağıyev Heydər Əliyevin dilindən yalan danışdı" iddiası - Heydər Əliyev belə edərdimi...



■ səh. 6 ■

Azərbaycan kommunistlərindən Fransa kommunistlərinə sərt mesaj - "ermənipərəstlikdən əl çəkin"



■ səh. 7 ■

Müsavat Partiyasının bələdiyyə seçkilərini boykot etməsi - "görünməyən bəlli səbəblər"...



■ səh. 13 ■

Bakı sərnişin avtobuslarında günün müxtəlif saatlarında müxtəlif qiymətlər? - neqativ hallara böyük şanslar açılır...



# Prezident Eldar Əzizova Bakının rayon icra başçıları ilə bağlı təsirli səlahiyyət verdi

*"...sərəncamlar qanunsuz verilir, yerlər zəbt edilir"...*



**Prezident İlham Əliyev Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovu qəbul edib. Bakı şəhərinin inkişafının daim diqqət mərkəzində olduğunu bildirən Prezident İlham Əliyev deyib:**

-Bilirsiniz ki, mən şəhərdə gedən abadlıq-quruculuq proseslərinə şəxsən nəzarət edirəm, bir çox layihələrin təşəbbüskarı olmuşam. Bu gün Bakı dünyanın ən gözəl şəhəri kimi inkişaf edir. Bakıya gələn qonaqlar, o cümlədən mənim həmkarlarım həmişə paytaxtda gedən quruculuq-abadlıq işləri haqqında öz təəssüratlarını bölüşürlər və qeyd edirlər ki, Bakı doğrudan da dünyanın ən gözəl şəhərlərindən biridir.

### Prezident Bakı şəhəri üçün üç təhlükə mənbəyinin yox edildiyini bildirdi

Şəhərin ekoloji vəziyyəti yaxşılaşır, bir çox önəmli layihələr icra edilmişdir. Əvvəlki illərdə şəhərin havasını çirkləndirən mənbələr aradan götürüldü. Onların arasında, ilk növbədə, keçmiş Balaxanı zibilxanasını qeyd etməliyəm. Bu zibilxana elə bir tüstü buraxırdı ki, havanın keyfiyyəti böyük dərəcədə aşağı düşmüşdü və insan sağlamlığına böyük zərər verirdi. İndi keçmiş Balaxanı zibilxanasının yerində müasir poliqon qurulub və zibilin çeşidlənməsi, bərk məişət tullantılarının yandırılması istiqamətində böyük addımlar atılıb, böyük investisiyalar qoyulub, zibilyandırma zavodu inşa edilibdir. Biz bu ekoloji fəlakət mənbəyini aradan götürdük.

Digər ekoloji fəlakət mənbəyi Bibiheybət neft mədənləri idi. Oradakı vəziyyət, ümumiyyətlə, çox acınacaqlı idi, neftlə çirklənmiş yerlər, göl-məçələr. Bunların hamısı aradan götürüldü. İndi orada gözəl park salınıb və vətəndaşların sərəncamına verilib. Eyni zamanda, idman şəhərciyi yaradılıb, müasir idman hovuzu, digər ictimai obyektlər tikilib.

### Qanunsuz sərəncamlar verilir, yerlər zəbt edilir

...Biz elə etməliyik ki, Bakı şəhərinin hər bir yeri abad olsun və vətəndaşları narahat edən problemlər aradan qaldırılsın, o cümlədən tikintilərlə bağlı məsələlər. Mən bu barədə də müvafiq göstərişlər vermişəm. Bəzi hallarda tikinti üçün yerlər zəbt olunur, bəzi hallarda sərəncamlar qanunsuz olaraq verilir, ağaclar qırılır. Vətəndaşlar sağ olsunlar ki, bir çox hallarda belə vəziyyətlə üzləşdikdə müvafiq orqanlara məlumat verirlər. Yəni, bu, ictimai nəzarətin mövcudluğu deməkdir. Bundan sonra Bakıda şəhərsalma qaydaları tam təmin edilməlidir. Bütün şəhərlərdə bina tikintisi üçün müvafiq əmsallar mövcuddur. Əfsuslar olsun ki, əvvəlki dövrlərdə bu əmsallar 10 dəfə, bəlkə də artıq götürülürdü. Yəni, bütün şəhərsalma qaydaları pozulurdu. Mövcud binaların düz önündə yeni hündürmərtəbəli binalar tikilirdi və bəzi dırnaqarası sahibkarlar köhnə binalarda yaşayan vətəndaşları Günəş işığından məhrum edirdilər. Bir çox hallarda həyətlərdə evlərin tikintisi baş verirdi. Əvvəlki dövrdə hətta bəzi məktəblərin həyətlərində evlər tikilirdi. Sonra bu məsələyə son qoyuldu. Yəni, şəhərsalma qaydaları tətbiq olunmalıdır, burada yerli icra orqanları və əlbəttə, Dövlət Arxitektura və Şəhərsalma Komitəsi öz işini yüksək səviyyədə qurmalıdır ki, bütün şəhərsalma normaları təmin edilsin.

### Vətəndaşlar incidilir, problemlərinə reaksiya verilmir

Əlbəttə ki, rayon icra hakimiyyətləri tərəfindən vətəndaşlara diqqət yüksək səviyyədə olmalıdır. Bəzi hallarda vətəndaşlar incidilir, onların problemlərinə reaksiya verilmir. Bəzi hallarda vətəndaşlardan qanunsuz olaraq müəyyən vəsait tələb edilir, rüşvətxorluq halları baş verir. Belə siqnallar bizə çatır və rayon icra hakimiyyətləri nəticə çıxarmalıdırlar. Xoşagəlməz hallara yol verilməməlidir, vətəndaşlara maksimum diqqət göstərilməlidir, rayon icra hakimiyyətlərinin nümayəndələri kabinetdə oturub kağızlara baxmaq yox, bütün rayonlarda vətəndaşlarla görüşməlidirlər. Mənim göstərişimlə son vaxtlar bu proses bir qədər geniş vüsət alıb, amma lazımi səviyyədə deyil. Mənə verilən məlumata görə, bəzi hallarda formal xarakter daşıyır, bəzi hallarda vətəndaşları narahat edən problemlərə reaksiya verilmir. Ona görə biz çox diqqətli olmalıyıq. Əgər vətəndaşı nəsə narahat edirsə, buna reaksiya verilməlidir. Əlbəttə, bütün məsələlərə obyektiv şəkildə baxılmalıdır. Bəzi hallarda elə məsələlər qaldırılır ki, bunun heç bir əsası yoxdur, yaxud da sırf şəxsi xarakter daşıyır. Ancaq bir çox hallarda vətəndaşlar haqlı olaraq öz təkliflərini verirlər, onları narahat edən problemləri qaldırırlar. Həm Bakı Şəhər İcra Hakimiyyəti və bütün rayon icra hakimiyyətləri vətəndaşlara böyük diqqətlə yanaşmalıdırlar. Beləliklə, Bakı şəhəri və Azərbaycanın bütün şəhərləri planlı şəkildə inkişaf etməlidir.

Bakı şəhərinin nadir, özünəməxsus, tarixi memarlıq siması var. Bu bizim böyük sərvətimizdir və hər bir tarixi binaya böyük diqqətlə yanaşılır. O binaların təmiri gərək elə aparılsın ki, onların tarixi görkəmi pozulmasın. Bəzi hallarda tarixi binaları sökürlər, onların yerində eybəcər hündürmərtəbəli binalar tikirlər. Buna yol vermək olmaz. Bakının memarlığı bizim milli sərvətimizdir. İçərişəhər UNESCO tərəfindən qorunur. Deyə bilərəm ki, dünyada o qədər də çox şəhərlər belə qədim İçərişəhər kimi şəhərlərlə öyünə bilməz, bu, bizim böyük sərvətimizdir. Eyni zamanda, şəhərin hər bir yeri abad olmalıdır. Bəzi yerlərdə ümumiyyətlə, küçə işıqları yoxdur, qəsəbələrdə, bir çox yerlərdə torpaq yollar var. Mən artıq bu barədə Azəravtoyol Agentliyinə ciddi tapşırıq vermişəm, siz də nəzarət edin. Yəni, şəhərin hər bir yeri bizim üçün əzizdir. Bakı şəhəri təkcə mərkəzdən ibarət deyil. Biz şəhərin infrastrukturunu, ilk növbədə, vətəndaşlar, ondan sonra turistlər, xarici qonaqlar üçün yaradırıq.

### Bakının rayon icra başçılarını yığın...

Onlar da, əlbəttə ki, özlərini Bakıda rahat hiss etməlidirlər. Ancaq biz, ilk növbədə, şəhər sakinlərinin problemlərini həll etməliyik. Ona görə siz rayon icra hakimiyyətlərinin başçılarını yığın və həm abadlıqla, həm də təsərrüfat işləri ilə bağlı müşavirə keçirin. İlk növbədə, xoşagəlməz hallara son qoyulmalıdır. Süründürməçilik, rüşvətxorluq, vətəndaşlara biganə münasibət - bunlara son qoyulmalıdır. Əgər kim bu sahədə öz işinə düzəliş etməsə, biz o adamlarla vidalaşacağıq və bu, onlar üçün hələ ən yüngül cəza olacaqdır. Biz şəhərimizi inkişaf etdirməliyik. Bir daha demək istəyirəm ki, Bakı şəhəri dünyanın ən gözəl şəhərlərindən biridir və gələcəkdə də şəhərin inkişafı ilə bağlı əlavə addımlar atılacaqdır.

# Prezidentin icra başçıları ilə yeni iş üsulu- təsadüfi adamların təyinat risqinin qarşısı alınır...

***Rauf Zeyni:** "Burada söhbət kəmiyyət deyil, keyfiyyət dəyişikliyindən gedir"*

**Son vaxtlar biz ölkə başçısının yeni formatda məmurları qəbul etdiyini görürük. Prezident öz iş otağında məmurlar qəbul edir, onlardan hesabat tələb edir və ya vəzifəyə yeni təyin olunanlara öz tapşırıqlarını verir. Həmin görüşlərin bütün məzmunu televiziyalar tərəfindən ictimaiyyətə çatdırılır.**



Son günlər diqqətçəkən məqamlardan biri də Prezident İlham Əliyevin Anar Tağıyevi Yevlax Rayon İcra Hakimiyyətinin başçısı, Elnur Rzayevi isə Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunması ilə əlaqədar qəbul etməsi oldu. Etiraf edək ki, bəzən icra başçılarının sırasında siyasi cəhətdən yetkin olmayan, təsadüfi şəxslərə də rast gəlinir. Prezidentin icra başçılarını şəxsən qəbul etməsi kimi müəyyənləşən formatın belə halların qarşısının alınmasında nə kimi rolu olacaq? Bəllidir ki, bu, eyni zamanda, həmin şəxslərin təqdimatını verən məmurların da məsuliyyətinin artması ilə nəticələnəcək. Çünki elə ilk görüşdə Prezident həmin adamların nəyə qadir olduğunu müəyyən edə bilər.

Bu barədə ekspertlər nə düşünürlər?

Milli QHT Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ölkə başçısının təşəbbüsü ilə başlanan islahatlar çox uğurla davam edir: "Bu islahatların belə hərtərəfli aparılması, səmərəli idarəetməyə keçid ölkəmizin gələcəyinə qoyulan ən böyük yatırımdır. Biz fikir veririk ki, atılan addımlar ölkə ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir və diqqətlə izlənir. Ola bilsin ki, əvvəllər də ölkə başçısı bəzi icra başçılarını qəbul edib və bütün tapşırıqlarını, xəbərdarlıqlarını onlara verib. Ancaq bu, ictimaiyyətə çatdırılmırdı. İndi isə yeni islahatlar formatında cənab Prezident birbaşa o kadrların qəbul olunub, hansı söhbətin onlarla edildiyinin ictimailəşməsini ortaya qoyur. Əvvəl bu hallar olsa da, ictimaiyyətə təqdim edilmirdi. Belə halın olması, eyni zamanda, xalqın gözünü açır.

Onlar icra başçılarından nəyi tələb edəcəklərini gözəl bilirlər. Çünki ölkə başçısının yeni kadrlar qarşısında qoyduğu tələblərdən hamı xəbərdar olur. Mən hesab etmirəm ki, kadrların içərisində təsadüfi adamlar olub. Sadəcə, etimadı doğruldan və ya doğrultmayanlar olub. Artıq yeni dönəm başlayıb. Prezidentin dediyindən də belə başa düşülür ki, daha çevik idarəetməyə keçilir. Onlardan xarici investisiya cəlbi, kabinetdə oturmamaq, kəndləri bir-bir gəzib əhalinin problemləri ilə tanış olmaq tələb edilir. Köhnə icra başçılarının sırasında hətta etimada xəyanət edənlər də olub. Prezident çıxışında bu neqativliklərdən danışdı. Təbii ki, bu format məsuliyyəti daha da artıracaq. İkinci etap isə onların necə işləyəcəyi ilə bağlı olacaq. Onda biz onların fəaliyyətinə qiymət verə bilərik.

**Burada söhbət kəmiyyət deyil, keyfiyyət dəyişikliyindən gedir. Bu keyfiyyət dəyişikliyinə bizim çox böyük ehtiyacımız var. Vətəndaş cəmiyyəti olaraq biz bu islahatları ikiəlli dəstəkləyirik. Bizim sıralarımızda da kifayət qədər layiqli kadr var. Mən istərdim ki, onların da idarəetmə prosesinə cəlbinə start verilsin".**

***Məhəmmədəli QƏRİBLİ***

# Bütün icra başçıları Prezidentin müəyyən etdiyi yeni iş üsuluna keçsə - kəndlərdə, məhəllələrdə olmaq, kabinetdə oturmamaq...

**Məlum olduğu kimi, ötən həftə Prezident İlham Əliyev Xaçmaz və Yevlax rayonlarına yeni icra başçıları təyin etdi. Dövlət başçısı Anar Tağıyevi Yevlax Rayon İcra Hakimiyyətinin, Elnur Rzayevi isə Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin edib. Prezident yeni təyin olunan icra başçıları ilə görüşən zaman onların qarşısına tələblər qoyub.**

*"Çox təəssüf ki, başçıların əksəriyyətində bu hərəkətlər yoxdur"*

***Rüfət Quliyev:** "İcra başçıları mütəmadi olaraq kəndləri gəzməli, əhali ilə tanış olmalı, onların problemlərini bilməlidirlər"*

Belə ki, yeni icra başçıları ilə görüşündə Prezident tapşırıq verib ki, onların işi "kabinet işi" olmamalıdır: "Siz vətəndaşlarla daim təmasda olmalısınız, bütün kəndləri gəzməlisiniz, kənd camaatı ilə görüşməlisiniz".

Qeyd edək ki, Prezidentin icra başçılarına işinin yalnız kabinetdə deyil, əhali ilə sıx təmasda olması tələbi bütün icra başçıları tərəfindən tətbiq olunarsa, o zaman ucqar kəndlər, qəsəbələr, rayonların vəziyyəti necə olar?

İcra başçıları kabinetdə deyil, əhali arasında olmalı, onların həyat şəraiti, rayonun sosial-iqtisadi vəziyyəti ilə əyani tanış olmalı, əhalinin problemlərini şəxsən dinləməlidirlər.

Millət vəkili Rüfət Quliyev bildirdi ki, dövlət başçısı hər bir icra başçısını təyin edərkən onunla söhbət edir və müəyyən tapşırıqlar verir: "Prezident İlham Əliyev Xaçmaz və Yevlax rayonlarına təyin etdiyi icra başçıları ilə görüşən zaman tək Anar Tağıyev və Elnur Rzayevə deyil, bütün icra başçılarına göstəriş verdi ki, işlərini kabinetdə oturmaqla deyil, əhali ilə sıx təmasda olmaqla həll etsinlər. Prezident düz irad bildirir ki, icra başçılarının işi yalnız kabinetdə oturmaqdan ibarət deyil. Onlar mütəmadi olaraq başçısı olduqları rayona aid olan kəndləri gəzməli, əhali ilə tanış olmalı, onların problemlərini bilməlidirlər. Gələcəkdə hər hansı bir problem olanda həmin problemi mərkəzi icra hakimiyyəti orqanına çatdırmaqla həllinə nail olmalıdırlar. Çox təəssüf ki, başçıların əksəriyyətində bu hərəkətlər yoxdur. Bəllidir ki, bu gün rayonların bəzi kəndlərində yollar bərbad gündədir. İcra başçıları rayona aid olan bütün kəndlərdə olarlarsa, orada həm infrastrukturdan, həm də əhalinin vəziyyətindən xəbərdar olarlar. İcra başçıları əhali ilə sıx təmasda olarlarsa, bölgələrin sosial-iqtisadi vəziyyəti inkişaf edər".



***Günel CƏLİLOVA***

**Sabiq nazir Əli Nağıyev verdiyi son müsahibədə Prezidentin köməkçisi Əli Həsənov barədə bəzi fikirlər səsləndirib. Həmin fikirlərin mahiyyəti və konkret dəlillərə söykənməməsi Nağıyevin Əli Həsənovla şəxsi intriqası olduğuna şübhə yeri qoymur.**

# "Əli Nağıyev Heydər Əliyevin dilindən yalan danışdı" iddiası - Heydər Əliyev belə edərdimi...



## *Qabil Hüseynli: "Kiminsə belə mövzuları onun yanında açmağa cəsarəti çatmazdı"*

Ancaq maraqlıdır ki, Əli Nağıyev səsləndirdiyi sərsəm fikirləri mərhum prezident Heydər Əliyevin adı ilə arqumentləşdirmək istəyir. Azərbaycan xalqının mənəvi keyfiyyətlərinə aid olan məsələlərdən biri də budur ki, hansısa dedi-qodu ilə dünyasını dəyişən adamın ruhunu narahat etmək olmaz. Bu qayda hətta sadə adamlara münasibətdə belə qorunub saxlanılır. Ancaq, görünür, Əli Nağıyev üçün belə məsələlər elə də böyük əhəmiyyət kəsb etmir. Belə olmasaydı, o, xalqın sevimlisi olan bir liderin adını öz şəxsi intriqasına qatıb, onunla manipulyasiya etməzdi. Əli Nağıyevin fikirlərindən sitat: "Mən hələ nazir idim, Heydər Əliyev məni çağırıb, Əli Həsənovun arxamca danışdığını söylədi. Heydər Əliyev mənə bildirdi ki, Əli Həsənov Əli Nağıyevin YAP-ı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə çevirdiyini deyir. Mən də Heydər Əliyevə bildirdim ki, Əli Nağıyev partiyanı deyil, nazirliyi YAP edir. Əsaslandırdım ki, məndən əvvəl Rəfael Allahverdiyevi və Əli İnsanovu daha böyük qurumlara vəzifəyə qoymusunuz, ancaq onlar partiyadan, demək olar ki, heç kimi irəli çəkməyiblər. Axı məni bu nazirliyə partiyadakı fəaliyyətimə görə nazir təyin etmisiniz. Bəs onda mən lazım olan kadrları haradan seçməliyəm? Sözsüz ki, partiyadan! Bu cavabımdan sonra Heydər Əliyev mənə bir kəlmə də artıq söz demədi".

Əli Nağıyev daha sonra yenə adi bir məişət söhbətinə də Heydər Əliyevin adını qatır: "O vaxtı Əli Həsənovu bağıma aparmışdım, evimdə çörək yemişdi, amma sonra gedib Heydər Əliyevin yanında deyib ki, Əli Nağıyevin evində bir "lüstura" var ki, düşsə, Prezident Aparatı uçar".

Əli Nağıyev iddia edir ki, bütün bu söhbətləri ona Heydər Əliyev deyib. Faktiki olaraq, Heydər Əliyevin adını öz komanda üzvləri arasında gedən intriqalarda vacib element kimi qeyd etməyə can atır. Təbii ki, hamı bilir ki, Heydər Əliyev belə məişət məsələləri səviyyəsinə enən şəxsiyyət olmayıb. Əli Nağıyevin Heydər Əliyev barədə səsləndirdiyi fikirləri nə dərəcədə əsaslı saymaq olar?

Vaxtilə Heydər Əliyevlə yaxın münasibətdə olmuş, onun idarəetmə prinsiplərinə yaxından bələd olan sabiq dövlət müşaviri Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Əli Nağıyevin Heydər Əliyevə xitabən söylədiyi fikirləri inandırıcı saymır: "O dahi şəxsiyyətin dedi-qodu, məişət məsələləri, kimin evində nəyin olub-olmaması ilə işi olmazdı. Və yaxud da kiminsə belə mövzuları onun yanında açmağa cəsarəti çatmazdı. Həmin dövrlərdə müharibə gedirdi, beynəlxalq münasibətlərdə gərginlik vardı. Heydər Əliyev belə qlobal problemlərin yoluna qoyulması ilə məşğul olurdu. Şəxsən mən də-

> *"Heydər Əliyev qlobal problemlərin yoluna qoyulması ilə məşğul olurdu"*

fələrlə onunla şəxsi kontaktda olmuşam. Böyük dövlət adamı bütün görüşlərdə ancaq Azərbaycanı narahat edən məsələlər, xalqın taleyi ilə bağlı söhbətlər edirdi. Mən Əli Həsənova Heydər Əliyevin deyilən səviyyədə münasibət bəslədiyinə inanmıram. Beləydisə, niyə Heydər Əliyev gətirib Əli Həsənovu ən mühüm posta təyin edirdi? Əli Həsənov hələ Moskvada oxuyarkən Heydər Əliyevlə yaxın olub. Ondan sonrakı dönəmdə, Naxçıvan və Bakıda hər zaman Heydər Əliyevlə əlaqədə olub. Onların arasında güclü, qarşılıqlı etimad mühiti formalaşdırılmışdı. Belə dedi-qodular tarixdə olan gercəklərə kölgə sala bilmir. Mən rəhmətə gedən bir şəxsin adından belə fikirlərin söylənməsini etik saymıram. Bu cür taktikadan istifadə etikadan kənar olmaqla yanaşı, həm də dövlətimiz üçün ziyanlıdır. Belə bir dönəmdə bu cür söhbətlər İlham Əliyevin yekdil komandasına ziyandan başqa nəsə vəd etmir. Əli Nağıyev nahaq yerə gücünü belə lazımsız fəaliyyətə xərcləyir. Bununla o, hakimiyyət daxilində hər hansı narazılığın yaradılmasına nail ola bilməyəcək".

***Məhəmmədəli QƏRİBLİ***

**Məlum olduğu kimi, hüquq müdafiəçisi Oqtay Gülalıyev oktyabrın 29-u, saat 17:20-də Bakıda yolu keçərkən taksi tərəfindən vurulub. Nəticədə o, daxili kəllə-beyin travması alaraq xəstəxanalıq olub. Yaxınlarının verdiyi məlumata görə, əvvəlcə Oqtay Gülalıyev "Semaşko" xəstəxanasına aparılıb.**

# Oqtay Gülalıyevin xaricdə müalicəsi zəruridirsə... Prezidentə niyə müraciət edilmir...



## *Aydın Mirzəzadə: "Bütün xərcləri dövlət üzərinə götürüb"*

Oradan isə öz istəyilə "City Hospital" adlı özəl xəstəxanaya köçürülüb. Orada da yaxınlarının icazəsilə onun başında cərrahi əməliyyat aparılıb.

Həkim Adil Qeybullanın verdiyi məlumata görə, əməliyyat təcrübəli neyrocərrahlar tərəfindən həyata keçirilib. A.Qeybulla əməliyyatın gedişini ideal adlandırıb. Bildirib ki, həmin həkimlər Səhiyyə Nazirliyi tərəfindən bu işə təhkim ediliblər. O.Gülalıyev hazırda Neyrocərrahiyyə Xəstəxanasının reanimasiya şöbəsindədir. Həkimlər onun vəziyyətini belə dəyərləndirirlər: "Kəskin dövr hələ keçməyib. Süni ventilyasiya şəraitindədir. Bununla yanaşı, vəziyyəti stabildir, gerilləmə yoxdur, beyin travmasına bağlı komatoz durumdadır. Hemodinamik göstəriciləri stabildir, saturasiyası (toxumaların oksigen təminatı) normaldır. Belə bir durumda olan qardaşımıza əlimizdən gələn köməkliyi əsirgəmirik. Çalışırıq ki, Oqtay bəy tez sağalsın. Amma məlum durumda olan insanın müayinə və müalicəsinə böyük məbləğdə vəsait tələb olunur".

O.Gülalıyevin yaxınlarının sosial şəbəkələrdə yaydığı məlumatlardan görünür ki, onun müalicəsinin xaricdə davam etdirilməsinə ehtiyac duyulur, ancaq sağlamlıq durumu buna imkan vermir. Belə məlumat da verilir ki, Türkiyə Respublikasında yaşayan iş adamı Mübariz Mənsimov xəstəmizin sağalması üçün yardım əlini uzadıb və Oqtay bəyin sağlıq durumunun yaxşılaşması üçün əlindən gələni edəcəyinə də söz verib.

Adil Qeybullanın da verdiyi məlumatdan görünür ki, Səhiyyə Nazirliyi bu məsələni daim diqqətdə saxlayıb. Ancaq Oqtay bəyin müalicəsinə xaricdə zərurət yaranarsa, ölkə başçısına bununla bağlı müraciət etmək lazımdırmı?

Qeyd edək ki, ölkə başçısı hər zaman, siyasi əqidəsindən asılı olmayaraq, cəmiyyətdə tanınan şəxslərin müalicəsini nəzarətə götürüb. Ortada Nicat Dağlar, Səbuhi Məmmədli, Natiq Qocaman və s. nümunələr var. O.Gülalıyevin ailəsi adından belə bir müraciətin olunması hansı effekti verə bilər? Qeyd edək ki, bu məsələ ilə bağlı O.Gülalıyevin ailə üzvlərindən münasibət öyrənmək istəyimiz alınmadı.

Millət vəkili Aydın Mirzəzadə "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycan Prezidenti və hakimiyyəti daim öz vətəndaşlarının qayğısına qalır: "Doğru qeyd edirsiniz ki, bu məsələdə siyasi mənsubiyyətə zərrə qədər də fərq qoyulmur. Təəssüf edirəm ki, bəzi adamlar O.Gülalıyevin

> *"Bəzi adamlar Oqtay Gülalıyevin düşdüyü sağlamlıq durumu ilə bağlı manipulyasiya edib, özlərinə xal yığmağa çalışırlar"*

düşdüyü sağlamlıq durumu ilə bağlı manipulyasiya edib, özlərinə xal yığmağa çalışırlar. Mən O.Gülalıyevin müalicə aldığı Neyrocərrahiyyə Xəstəxanasına baş çəkdim. Onun vəziyyəti ilə maraqlandım. Reanimasiya otağına gedərək vəziyyətini əyani gördüm. Baş həkim, onu əməliyyat edən həkimlə təmasım oldu. Vəziyyəti ağır, lakin stabil qiymətləndirilir. İntensiv müalicə gedir. Bütün xərcləri də dövlət üzərinə götürüb. Hələlik onun xaricdə müalicəsinə heç bir ehtiyac yoxdur. Onunla bağlı hansısa dərman qıtlığı söhbəti də yaşanmır. Ailəsi də onun Bakıda müalicə olunmasını istəyir. Kimlərinsə onun adından pul yığmasını isə normal hərəkət saymıram. Bütün xərcləri dövlət çəkirsə, əlavə vəsaitə nə ehtiyac var? Azərbaycan dövlətinin kifayət qədər imkanı var ki, çətinliyə düşən vətəndaşına kömək etsin. Gələn ilin yanvarından isə icbari tibbi sığortaya keçiləcək. Ondan sonra heç bir problem qalmayacaq. O ki, qaldı onun reabilitasiyasına, bu da dövlətin hesabına olacaq. Təki ayaq üstə dursun".

***Məhəmmədəli QƏRİBLİ***

# Qarabağ probleminin həlli üzrə Ermənistanda referendum keçiriləcək(?)...

**Ermənistanın Baş naziri Nikol Paşinyan "Facebook"dakı səhifəsi üzərindən canlı yayıma çıxaraq bəzi mövzulara toxunub. O qeyd edib ki, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistanda referendum keçirə bilər: "Danışıqlar masası ətrafında əsas məsələ erməni xalqı üçün münasib həll variantı tapmaqdır.**



Əgər belə variant tapılsa, o, xalqa təqdim olunacaq və ümumi müzakirəyə çıxarılacaq. Qərar ümummilli formatda qəbul olunmalı və lazım gələrsə, referendum keçirilməlidir".

Bununla belə, Paşinyan münaqişənin həlli ilə bağlı bəzi optimist fikirlər də səsləndirib. Onun fikrincə, Qarabağ danışıqlarında irəliləyiş olmasa da, maraqlı dinamika müşahidə olunur: "Onu deyə bilərəm ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına yönəlmiş danışıqlar prosesində, nə qədər qəribə və gözlənilməz olsa da, yetərincə maraqlı dinamika müşahidə olunur. Nikbinəm və düşünürəm ki, bu dinamika davam edəcək. Dinamika inkişaf edəcək. Mən Aşqabadda da Azərbaycan Prezidenti ilə söhbət etmişəm və müəyyən dinamika, atmosfer, axtarmaq istəyi var".

## *Fikrət Sadıqov: "Ermənistan vətəndaşı nə vaxtdan Qarabağın taleyi ilə bağlı referendum hüququna malikdir?"*

Əslində, danışıqlarda heç bir irəliləyiş yoxdur, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin davamlı bəyanatlarından da müəyyənləşdirmək olar. Ermənistan Xarici İşlər Nazirliyinin bəyanatlarında da danışıqların gedişi ilə bağlı fərqli heç nə yoxdur. Belə olan halda, Paşinyanın danışıqlarda dinamikadan bəhs etməsi nəyə əsaslanır? Bununla yanaşı, Qarabağ münaqişəsinin həlli ilə bağlı Ermənistanda referendum keçirilə biləcəyi nə deməkdir?

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, hər iki məsələ ilə bağlı çoxsaylı ziddiyyətli məqam var: "Paşinyanın hansı dinamikanı nəzərdə tutduğu aydın deyil. Məsələ ondadır ki, müxtəlif bəhanələrlə Ermənistan danışıqlardan qaçır. Təmas xəttində ermənilər daim atəşkəsi pozurlar. Düzdür, Paşinyan Baş nazir olandan sonra atəşkəsin pozulması halları say baxımından azalıb. Ancaq o da var ki, erməni snayperləri təkcə hərbçiləri deyil, dinc əhalini də hədəf alırlar. Belə olan halda, danışıqlarda hansı müsbət dinamikadan söhbət gedə bilər? Paşinyan hakimiyyətə gələndən ziddiyyətli açıqlamalar verir. O baxımdan onun danışıqlarla bağlı səsləndirdiyi pozitiv xarakterli fikirlərin əsası yoxdur. Bununla belə, Paşinyan deyir: "Qarabağ Ermənistandır", müdafiə naziri Tonoyan deyir ki, "Qarabağ məsələsi həll olunub". Belə sərsəm açıqlamalardan sonra da Paşinyan deyir ki, Qarabağ münaqişəsinin həlli ilə bağlı Ermənistanda referendum keçirilə bilər.

*"Bütün bunlar Paşinyanın səsləndirdiyi boş ifadələrdir"*

Ermənistan vətəndaşı nə vaxtdan Qarabağın taleyi ilə bağlı referendum hüququna malikdir? Məgər Ermənistan vətəndaşlarının bununla bağlı hüququ var? Bütün bunlar Paşinyanın səsləndirdiyi boş ifadələrdir. Ermənistan danışıqlarda dinamikaya nail olmaq istəyirsə, o zaman Azərbaycanla masa arxasına otursun və müəyyən güzəştlərə getsin. Yəni torpaqları işğaldan azad etsin. Yoxsa, bu cür aldadıcı sülhməramlı ritorika ilə nəyəsə nail olmaq olmaz".

***Vidadi ORDAHALLI***

# ABŞ Konqresinin "genosid qərarında" iki yəhudi təşkilatının lobbiçiliyi - müasir yəhudilərin ata-babalarına qarşı erməni cinayətləri nə tez unuduldu...

**ABŞ Konqresi Nümayəndələr Palatasının 1915-ci ildə Osmanlı dövlətində baş vermiş hadisələrlə bağlı qətnamə qəbul etməsi ikili standartların bariz nümunəsidir. Tarixi faktları təhrif edən belə bir qərarın qəbul edilməsi, şübhəsiz, ABŞ kimi qüdrətli dövlətin nüfuzuna xələl gətirəcək və Ermənistanla Türkiyə arasında gələcəkdə aparıla biləcək hər hansı dialoqa zərbə vuracaq.**



## *Arzuxan Əlizadə: "Ermənilər o zaman faşistlərlə əlbir olaraq yəhudilərin qətlə yetirilməsində xüsusi fəallıq göstərirdilər"*

Təəssüfləndirici məqam həm də ondan ibarətdir ki, qondarma "erməni soyqırımı" ilə bağlı qətnaməyə ABŞ-dakı 2 yəhudi təşkilatı da yardım edib. İlk dəfə olaraq Birləşmiş Ştatlardakı yəhudi diasporunun iki ən nüfuzlu təşkilatı - Amerika Yəhudi Komitəsi (American Jewish Joint Distribution Committee, JDS) və Antidiffamasiya Liqası (Anti-Defamation League, ADL) qətnamənin Konqresdə qəbul olunmasına dəstək verib. Amerikada yəhudi lobbisi erməni lobbisindən güclüdür. Keçmiş illər olsaydı, yəhudi lobbisi Türkiyə əleyhinə olan qətnamənin qəbuluna imkan verməzdi. Ancaq son illər Türkiyə ilə İsrail arasındakı münasibətlər gərginləşib. Ona görə də yəhudi lobbisi erməni lobbisinin Türkiyə əleyhinə fəaliyyətinə mane olmur, bəzi hallarda isə dəstək verir. Ancaq bütün bunlar əsas vermir ki, yəhudi lobbisi qondarma "soyqırım" barədə qərarın qəbul edilməsinə dəstək versin. Məsələ ondadır ki, tarixdə bir neçə dəfə türklər yəhudiləri xilas ediblər. Bununla belə, ermənilər dəfələrlə yəhudilərin məhv edilməsində fəal rol oynayıblar. Məsələn, 1918-ci ildə ermənilər Qubada 3 min nəfər dağ yəhudisini qətlə yetirdilər. O vaxt türklərin köməyi olmasaydı, daha çox yəhudi ermənilər tərəfindən məhv edilərdi.

Almaniyada faşist diktaturası qurulandan sonra bir çox yəhudi Türkiyəyə sığındı. İkinci Dünya Müharibəsi zamanı Vermaxtın tərkibində 20 min nəfərlik erməni legionu yəhudilərin qətlə yetirilməsində xüsusi fəallıq göstərirdi. Erməni legionu həbs düşərgələrində ölüm marşları təşkil edib. Bununla yanaşı, Adolf Hitlerin təbliğat-təşviqat naziri Yozef Göbbelsin nəzarəti altında sırf ermənilərdən təşkil olunmuş rus, erməni, fransız və alman dillərini bilən radio təbliğatçıları fəaliyyət göstəridilər. Həmin ermənilər III Reyxin digər xalqlara təbliğat materiallarını ötürməkdə müstəsna xidmətlər göstərirdilər.

Bununla yanaşı, 1936-cı ildə Almaniyada nəşr olunan "Hayrenik" adlı erməni qəzetində diqqətçəkən məqamlardan biri də qəzetin yəhudilərə qarşı açıq-aşkar nifrət, iqri ayrı-seçkiliyi əks etdirən çağırışları təbliğ etməsidir. "Hayrenik" qəzeti o zamankı sayında yazırdı: "Yəhudilər fanatik milliyyətçiliyin və irqçiliyin törəmələridirlər. Bu zəhərli ünsürləri xroniki xəstəliklər kimi kök saldıqları yerdən təmizləmək bəzən çətin olur. Ancaq onların məhv edilməsinə ehtiyac olduğu zaman, bu cür addımın atılması düzgün sayılmalıdır. Cərrahiyyə əməliyyatı zamanı qanın axması təbiidir".

*"İki yəhudi təşkilatının qondarma "genosid"ə dəstək verməsi utancverici haldır"*

10 may 1935-ci ildə "Hayrenik" qəzeti Rumıniyanın paytaxtı Buxarest şəhərində bələdiyyə rəhbərinin irqçi və antisemitizm mahiyyəti daşıyan çıxışını böyük fəxrlə dərc edir. Buxarest şəhərinin bələdiyyə rəhbəri erməni qəzetinin nəşr etdiyi həmin çıxışında deyirdi ki, "ermənilər bizə, yəni rumınlara yəhudilərin köləsi olmamağımız üçün böyük kömək etdilər".

Digər tərəfdən, 1947-ci ildə İsrail dövləti yarananda onu ilk tanıyan, bu dövlətlə geniş əlaqələr quran müsəlman ölkəsi məhz Türkiyə olub. Buna görə Türkiyə uzun illər ərəb dövlətlərinin təzyiqləri ilə üzləşib. Bütün bunları nəzərə almadan yəhudi lobbisinin qondarma "erməni soyqırımı" barədə Nümayəndələr Palatasının qərarına dəstək verməsi təəssüf doğurur.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP-in baş katibi Arzuxan Əlizadənin sözlərinə görə, iki yəhudi təşkilatının Türkiyəyə münasibətdə sərgilədiyi belə mövqe ədalətsiz yanaşmadır: "Düzdür, neçə illərdir Türkiyə ilə İsrail dövləti arasında müəyyən fikir ayrılıqları səbəbindən münasibətlər gərgindir. Ancaq onu da nəzərə almaq lazımdır ki, dövlətlər arasında münasibətlərin gərgin olması daimi olmur. Bəlli bir dövrdən sonra siyasi münasibətlər düzəlir. O baxımdan heç şübhə etmirəm ki, Türkiyə-İsrail münasibətləri də daim gərgin olmayacaq. Bununla belə, Türkiyə zaman-zaman yəhudilərin qorunmasında rol oynayıb.

20-ci əsrdə 2 dəfə dünya müharibəsi baş verib. Həmin müharibələr zamanı yəhudilər olmazın məşəqqətlərlə üzləşiblər. Xüsusən də 2-ci Dünya Müharibəsində. O zaman Türkiyə müharibəyə qatılmayaraq neytral mövqe tutdu. Məhz həmin dövrdə bir sıra yəhudilər faşistlərin onlara yönəlik soyqırımından xilas olmaq üçün Türkiyəyə sığındılar. Ermənilər o zaman faşistlərlə əlbir olaraq yəhudilərin qətlə yetirilməsində xüsusi fəallıq göstərirdilər. Bütün bunlar tarixdir. O üzdən, iki yəhudi təşkilatının qondarma "genosid"ə dəstək verməsi utancverici haldır".

***Vidadi ORDAHALLI***

**Bugün Azərbaycanın bir sıra görkəmli şairləri, musiqiçiləri, ədəbiyyat xadimləri, elm adamları Türkiyədə yaşayır və bu ölkənin müxtəlif ali məktəbləri, mərkəzlərində öz fəaliyyətlərini davam etdirirlər. Çox zaman yanlış olaraq bəzi ədəbiyyatşünaslar, ekspertlər Türkiyədə yaşayıb işləyən müasir ədiblər, alimlər, musiqiçilərin mühacirətdə olduqlarını qeyd edirlər.**



# Qardaş Türkiyədə Azərbaycan mühacirəti - Stalin dövründən qalmış "termin" niyə dəyişdirilmir...

## *Vaqif Yusifli: "Son dövrlər ölkəmizdən Türkiyəyə gedənlər bu yolu könüllü seçiblər, orada fəaliyyət göstərirlər"*

Əslində isə onlar mühacirətdə yox, ana-ata yurdlarımızdan birində fəaliyyət göstərirlər. Böyük Bəxtiyar Vahabzadə "Ana yurdum, ata yurdum, Azərbaycan-Türkiyə" deməklə bir millət, iki dövlət olan Azərbaycan və Türkiyənin ayrılmaz bir can, könül olduğunu ifadə edib.

Bolşeviklərin ölkəmizi işğal etməsi nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti devrildi və cümhuriyyət təmsilçilərinin bir çoxu - Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə kimi görkəmli şəxsiyyətlər öz fəaliyyətlərini Türkiyədə davam etdirdilər. Həmin dövrün siyasi şərtləri, Türkiyə-SSRİ münasibətləri tamam fərqli idi. Bu iki dövləti siyasi və ideoloji baxımdan fərqləndirən saysız amil vardı. Həmin illərdə Azərbaycan öz müstəqilliyini itirdiyi üçün Türkiyə ilə heç bir əlaqəsi yox idi. Baxmayaraq ki, könüllər, ürəklər bir-birinə bağlı idi, lakin o dövrdə mövcud olan ideoloji, siyasi çətinliklər Azərbaycan və Türkiyənin yaxınlaşmasına mane olurdu. Bəli, həmin dövrdə Türkiyədə yaşayan aydınlarımız, böyük elm, mədəniyyət, fikir adamlarımız, dövlət xadimlərimiz həqiqətən də mühacir həyatı yaşayırdılar. Bu baxımdan onların yazıb-yaratdıqları da mühacir ədəbiyyatı örnəkləri sayılır.

Ancaq bu gün Azərbaycan müstəqildir. Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi bir-birilə hərtərəfli əlaqələrə malikdir. Məlumdur ki, Türkiyəni azərbaycanlılar da özlərinə vətən sayır, Türkiyə vətəndaşları da ölkəmizə gerçək vətən kimi yanaşır və öz sevgilərini ifadə edirlər. Bu anlamda bu gün Türkiyədə yaşayıb-yaradan Azərbaycan şairləri, bəstəkarları, alimləri, ictimai simaları nə qürbətdədir, nə də mühacirətdə, onlar ata-ana yurdlarındadırlar. Tanınmış ədəbiyyatşünas-alim, professor Vaqif Yusifli "Bakı-Xəbər"ə bildirdi ki, bu gün Türkiyədə fəaliyyət göstərən yaradıcı insanları mühacirətdə hesab etmək doğru deyil. Onun sözlərinə görə, Türkiyə də bizim üçün vətəndir. "Müasir dövrdə Türkiyədə yaşayıb-yaradan, fəaliyyət göstərən azərbaycanlı şair və yazıçıları, bəstəkarları, musiqiçiləri, alimləri qətiyyən mühacirətdə saymaq olmaz, onlar mühacirətdə deyillər. Onların Türkiyədə yazdıqları da mühacir ədəbiyyatı nümunələri deyil. Ümumiyyətlə, əvvəlki dövrlərdə Azərbaycandan gedib Türkiyədə yaşayıb fəaliyyət göstərənlərlə müasir dövrdə gedənləri qarışdırmaq olmaz. Çünki Xalq Cümhuriyyətinin süqutundan sonra Türkiyəyə gedənlər bolşevizmlə barışmayan insanlar idi, ona görə də onlar mühacir adlanırdılar. Onların Azərbaycanı tərk etməsinə o dövrdə mövcud olan ictimai-siyasi vəziyyət şərait yaratmışdı. O insanlar Sovet rejimindən narazı olduqları üçün ölkəni tərk edirdilər və Türkiyədə də onlar siyasi mühacir kimi yaşayıb fəaliyyət göstərirdilər. Amma son dövrlər ölkəmizdən Türkiyəyə gedənlər bu yolu könüllü seçiblər, orada fəaliyyət göstərirlər, onlar Azərbaycan vətəndaşlarıdır, istədikləri vaxt problemsiz qayıdıb ölkəmizdə işlərini davam etdirirlər. Elələri var ki, artıq qayıdıb, bəziləri isə hələ də Türkiyədə fəaliyyət göstərirlər. Bu gün Türkiyədə yaşayıb-yaradan Azərbaycan şairləri, musiqiçiləri, alimləri, fikir adamları mühacirətdə deyil, öz ata-ana yurdlarındadırlar. Türkiyə də onlar üçün doğmadır" - deyə V.Yusifli bildirdi.

*"Xalq Cümhuriyyətinin süqutundan sonra Türkiyəyə gedənlər bolşevizmlə barışmayan insanlar idi, ona görə də onlar mühacir adlanırdılar"*

***İradə SARIYEVA***

---

**Məlum olduğu kimi, Fransa Kommunist Partiyası Makronu "Artsax"ın "müstəqilliyini" tanımağa çağırıb. Fransada qanuni fəaliyyət göstərən Kommunist Partiyası ölkə rəhbərliyini Azərbaycanın işğal altındakı torpaqlarında qondarılmış separatçı-terrorçu rejimi "müstəqil dövlət" kimi tanımağa səsləyib.**



# Azərbaycan kommunistlərindən Fransa kommunistlərinə sərt mesaj - "erməniпərəstlikdən əl çəkin"...

## *Rauf Qurbanov: "Fransa kommunistləri adından yayılmış bu müraciət sağalması mümkün olmayan "erməni xəstəliyi"nin simptomlarından biridir"*

Qeyd edək ki, üzdəniraq erməniпərəst partiyanın rəhbərliyi Fransa Prezidenti Emmanuel Makronla yanaşı, Avropa İttifaqının ali komissarı Federika Mogeriniyə də eyni məzmunda müraciət ünvanlayıb.

Məlumat üçün bildirək ki, Avropada ən güclü solçu qüvvələrdən biri olan Fransa Kommunist Partiyası 1920-ci ildə yaradılıb. Hazırda partiya Fransada 3-cü ən böyük siyasi qüvvədir. Fransa kommunistləri bu gün 138 min üzvə malikdirlər. Partiyanın parlamentdə 10, Senatda 18 və Avropa Parlamentində 3 kürsüsü var. Partiyanın hazırkı baş katibi Fabyen Russaldır.

Azərbaycan kommunistləri Fransa kommunistlərinin müraciətinə qəzetimiz vasitəsilə cavab verdilər.

Azərbaycan KP MK-nın sədri, KPİ-Sov.İKP Mərkəzi Şurasının üzvü Rauf Qurbanov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, o, dərc olunmuş materialla tanışdır: "Açığı çox təccübləndim. Azərbaycan Kommunist Partiyası ilə Fransa Kommunist Partiyası arasında uzun illərdir çox sıx mehriban dostluq, işgüzar münasibətlər var. Əgər doğrudan da Fransa kommunistləri Senata belə bir müraciət ediblərsə, bu, tamamilə yanlış, mahiyyətcə məsuliyyətsiz bir mövqedir. Belə bir halın olması Fransa KP-nin beynəlxalq nüfuzuna ciddi zərbədir. Digər tərəfdən, müxalifətdə olan bir partiyanın suveren dövlətin daxili işlərinə qarışması yolverilməzdir və beynəlxalq normativ-hüquqi aktlara tamamilə ziddir. Bu məlumatı biz öz xəttimizlə aydınlaşdırmağa çalışacağıq. Mən inanmıram ki, Fransa KP MK Senata belə bir məsuliyyətsiz müraciət etmiş olsun. Belə bir müraciət doğrudan da Fransa Senatına edilibsə, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi nəinki Fransa Kommunist Partiyasına, bütövlükdə, dünyanın digər ölkələrində fəaliyyət göstərən kommunist, fəhlə, sol partiyalarına müraciət edərək, fransız kommunistlərinin bu məsuliyyətsiz mövqelərinə öz kəskin münasibətlərini bildirməyə çağırış edəcək.

Bir məsələyə münasibət bildirmək istəyirəm. Diqqət edin, məlumatı məhz Ermənistanın "Armenpress" mətbuat agentliyi yayıb. Artıq təkcə bizə yox, bütün dünya ictimaiyyətinə erməni xisləti, saxtakarlığı, hiyləgərliyi, təxribatı, daha doğrusu, "erməni xəstəliyi" yaxşı məlumdur. Mən hesab edirəm ki, Fransa kommunistləri adından yayılmış bu müraciət sağalması mümkün olmayan "erməni xəstəliyi"nin simptomlarından biridir".

*"Müxalifətdə olan bir partiyanın suveren dövlətin daxili işlərinə qarışması yolverilməzdir"*

***Günel CƏLİLOVA***

**Siyasətçinin səhvlərindən nəticə çıxara bilməməsi onun ən böyük problemlərindən biridir. Həmin siyasətçi korafəhmliyini, bir addım öncəni proqnozlaşdıra bilməməsini anlamırsa, ikiqat problemdir. Azərbaycanın daxili siyasətinin müxalifət düşərgəsindəki partiyaların, bu partiyaların idarəetmə strukturlarında təmsil olunanların və ən pisi, həmin partiyaların rəhbərlərinə hələ də inananların əsas dərdi hakimiyyətdə təmsil olunmaqdır.**

# Milli Şuranın ABŞ-da sanksiya çağırışlarına Azərbaycan cəmiyyətinin reaksiyası...

***Azər Həsrət:** "Cəmiyyətimiz tərəfindən onun bu cür davranışı nifrətlə qarşılanıb"*



Bu hissi və istəyi pərdələyən çıxışlar edilir, bəyanatlar verilir, açıqlamalar səsləndirilir. Bunların fəaliyyət taktikasının əsasını mitinqlər, etiraz aksiyaları və piketlər təşkil edir. İctimai fikrin dərinliklərində, siyasi proseslərinsə girdabında olanlar, nəyin bahasına olursa-olsun, cəmiyyətin diqqətini cəlb etməyə, vətəndaşların çoxdan itirilmiş diqqətini qaytarmağa can atırlar.

Milli Şura və AXCP-nin şəhərin mərkəzində, Bakı metropoliteninin "28 May" stansiyasının qarşısındakı meydanda etiraz aksiyası keçirmək cəhdinin səbəbi ilə qayəsini də bu istəklər təşkil edir. Görünən odur ki, radikal düşərgə üçün xalq, sadəcə, siyasi mübarizədə vasitə, hakimiyyəti ələ keçirmək üçün gərəkli ünsür və seçkilərdə istinad edə biləcəyi sosial-siyasi vahidlər toplusudur. Gör bu düşərgə başını nə qədər itirib ki, nicat yolunu Qərbin Azərbaycana qarşı sanksiya tətbiq etməsində görür. Bununla bağlı utanmazcasına çağırış edir. Söhbət Milli Şuranının sədri Cəmil Həsənlinin ABŞ-da Azərbaycana qarşı sanksiyalar tətbiq edilməsi ilə bağlı çağırış etməsindən gedir. Hansı ki, öz xalqını, dövlətini sevən, Azərbaycanın müstəqilliyini, dövlətçiliyini istəyən şəxs bunu etməz. Ancaq Cəmil Həsənli bunu etdi. Bütün hallarda, Cəmil Həsənlinin bu bədnam çağırışını cəmiyyət necə dəyərləndirir, buna reaksiyası necədir?

Məsələyə münasibət bildirən media eksperti

> *"Cəmil Həsənli heç vaxt Azərbaycan dövlətinin mənafelərini öz şəxsi mənafeyindən üstün tutmağı bacarmayıb"*

Azər Həsrətin sözlərinə görə, bütün mənalarda, sözügedən məsələyə cəmiyyətin reaksiyası mənfidir: "Təəssüf ki, C.Həsənli nə bir alim, nə də keçmiş deputat və siyasət adamı kimi Azərbaycan dövlətinin təəssübkeşi olduğunu göstərə bilmir.

O bütün imkanlardan istifadə edir ki, Azərbaycanın adı daim "qara siyahı"larda olsun və ölkəmizə qarşı hansısa təzyiqlər edilsin. Onun bununla bağlı sanksiya çağırışı da o qəbildəndir. Bu o deməkdir ki, C.Həsənli dövlət adamı ola bilməyib. Eyni zamanda, dövlət əxlaqını mənimsəmiş birisi ola bilməyib. Bu adam yaşına-başına, müxtəlif dövrlərdə deputat olmasına baxmayaraq, heç vaxt Azərbaycan dövlətinin mənafelərini öz şəxsi mənafeyindən üstün tutmağı bacarmayıb. Ona görə də bu cür sərsəm çağırışlar edir. Azərbaycana qarşı Qərbin sanksiyalar tətbiq etməsi ilə bağlı çağırışlar edir.

**Təbii ki, cəmiyyətimiz tərəfindən onun bu cür davranışı nifrətlə qarşılanıb. Eyni zamanda bu, gülüş hədəfinə çevrilib. Çünki heç bir siyasət adamı öz dövlətinə yönəlik bu cür çağırışlar etməməlidir. Normal siyasətçilər heç vaxt belə addım atmırlar. Azərbaycan cəmiyyəti kifayət qədər intellektual cəmiyyətdir. Onun və onun kimilərin bu cür çağırışları Azərbaycan cəmiyyətini ciddi şəkildə narahat edəcək məsələlər deyil".**

***Vidadi ORDAHALLI***

---

**Noyabrın 3-də Müsavat Partiyası Məclisinin sessiyası keçirilib. İclasda ictimai-siyasi vəziyyət müzakirə olunub və təşkilati məsələlərə baxılıb. Partiya başqanı Arif Hacılı məruzə ilə çıxış edərək bir sıra məsələlərə toxunub. Məruzədə partiyanın qarşıdan gələn bələdiyyə seçkilərinə münasibəti, müxalifət təmsilçilərinin iştirakı ilə təklif olunan Dəyirmi masa, Müsavatın təyin etdiyi mitinq və digər məsələlərə toxunulub.**

# Müsavat Partiyasının bələdiyyə seçkilərini boykot etməsi - "görünməyən bəlli səbəblər"...

***Məhərrəm Zülfüqarlı:** "Bu onu göstərir ki, Müsavat Partiyası xalqla işləyə bilmir"*




O da məlum olub ki, Məclisdə çıxışçıların əksəriyyəti Azərbaycanda bələdiyyələrin səlahiyyətli olmadığını, cəmiyyətin bələdiyyə seçkilərinə marağının olmadığını və seçkilərin şəffaf keçirilmədiyini qeyd edərək, Müsavat Partiyasının seçkidə iştirakını vacib saymayıblar. Daha sonra məsələ səsə qoyulub və Məclis dekabrın 23-də keçiriləcək bələdiyyə seçkilərində Müsavat Partiyasının iştirak etməməsi barədə qərar qəbul edib.

Göründüyü kimi, radikal müxalifət düşərgəsi ənənəvi bəhanələrdən çıxış edərək bələdiyyə seçkilərinə qatılmır. Bu təkcə sadalanan səbəblərlə bağlı deyil. Bu həm də onunla əlaqədardır ki, Müsavat Partiyası bələdiyyə seçkiləri ilə bağlı cəmiyyətlə işləmək istəmir. Onlar görürlər ki, cəmiyyətdə sosial dayaqları olmadığından, seçkidə yetərincə səs toplaya bilməyəcəklər. Bunu örtbasdır etməkdən ötrü boykota gedirlər. Hansı ki, hakimiyyətə iddialı olan istənilən partiyanın yolu seçkilərdən keçir.

Maraqlıdır, bəs ekspertlər Müsavat Partiyasının bələdiyyə seçkilərini boykot etməsinin səbəbini nədə görür?

Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə

> *"Onlar yaxşı təşkilatlana bilsəydilər, güclü elektorata malik olsaydılar, seçkidə iştirak edərdilər"*

görə, hər bir partiyanın vəzifəsi seçkilərdə iştirak etməkdir: "Demokratiya prinsiplərini əsas götürən siyasi partiyanın əsas məqsədi seçkilərdə iştirak etmək və nəticə ortaya qoymaq olmalıdır. Bununla özünü siyasi arenada təsdiqləməlidir. Hansı partiya seçkidə boykota gedirsə, bu, həmin siyasi təşkilatın problemli olduğunu göstərir. Deməli, partiya olaraq bu işlərin öhdəsindən gələ bilmir. Çünki hakimiyyətə gəlməyin demokratik üsulu seçkilərdir. Lap zəif də olsa, seçkilədə müəyyən uğurlar qazanmaqla, gələcəkdə bu uğuru inkişaf etdirmək olar. Ancaq boykot taktikasını seçmək həmin təşkilatın zəifliyini və demokratik prinsiplərə söykənmədiyini sübut edir. Necə ki, Müsavat Partiyası bu yolu seçib. Bu onu göstərir ki, Müsavat Partiyası xalqla işləyə bilmir. Onlar yaxşı təşkilatlana bilsəydilər, güclü elektorata malik olsaydılar, seçkidə iştirak edərdilər. Onlar bələdiyyələrə üzv olandan sonra səlahiyyətlərin artırılmasını tələb edə bilərdilər. Yoxsa boykot edib evdə oturmaqla bələdiyyələrə əlavə səlahiyyət əldə etmək olmaz. Ona görə də boykot taktikası Müsavat Partiyasının zəiflik əlamətidir".

***Vidadi ORDAHALLI***

**"Hər bir siyasi lideri xalqa sevdirən başlıca meyar onun milliliyi, milli ideyaya bağlılığı və milli maraqlara xidmət etməsidir. Ulu öndər Heydər Əliyev siyasi fəaliyyətinin hər bir mərhələsində Azərbaycana dərindən bağlı olduğunu, bütün gücünü və böyük siyasi təcrübəsini dövlətimizin inkişafına və xalqımızın rifahına sərf etdiyini, həm öz şəxsi mənəvi keyfiyyətləri, həm də gördüyü böyük işlərlə nümayiş etdirib.**

# Azərbaycanın radikal müxalifəti ilə ermənilərin ABŞ-da sinxron fəaliyyəti...

## *Əli Həsənov yazır:*



2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilən cənab İlham Əliyevin fəaliyyətində də dövlətə bağlılıq, xalqa xidmət, vətənpərvərlik, milli maraqların aliliyi qırmızı xətlə keçir. Əgər Heydər Əliyev Azərbaycanı siyasi xəritədən silinmək təhlükəsindən xilas edib müstəqil dövlət quruculuğu prosesini müvəffəqiyyətlə təmin etdisə, İlham Əliyev Azərbaycanı müasirləşdirdi, modernləşdirdi və davamlı inkişaf yoluna çıxararaq qüdrətli bir ölkəyə çevirdi. Bir faktı da qeyd edim ki, həm ümummilli lider Heydər Əliyev, həm də Prezident İlham Əliyev Azərbaycanın siyasi həyatına öyrənilməsi və tətbiq edilməsi vacib olan bir çox fəaliyyət nümunəsi və ənənəsi gətirdilər. Təəssüf ki, opponentlərimiz bu böyük təcrübədən nəinki faydalanmırlar, əksinə, sanki hər addımları ilə milli dövlətçilik ənənələrimizdən, xalqımızn və dövlətimizin maraqlarından necə də uzaq olduqlarını sübut etməyə çalışırlar.

Sirr deyil ki, Azərbaycanın radikal müxalifəti uzun illərdir ABŞ-ın fəal ermənipərəst dairələri, xüsusilə Kristofer Smit, Frenk Pallone kimi konqresmenlər tərəfindən himayə olunmaqdadırlar. Məhz Kristofer Smitin təşəbbüsü ilə təqdim edilmiş "Azərbaycan demokratiya aktı - 2015" adlı layihədə Birləşmiş Ştatların Azərbaycanla münasibətlərinə yenidən baxması və ölkəmizə qarşı sanksiyalarının tətbiqi nəzərdə tutulurdu. 1992-ci ildə Azərbaycana qarşı tətbiq olunmuş "Azadlığa Dəstək Aktı"na 907 saylı düzəlişin müəlliflərindən biri də məhz K.Smit olmuşdur. Ermənipərəst konqresmenlərin təşəbbüsü ilə 2017-ci ildə ABŞ Helsinki Komissiyasının təşkil etdiyi "Qarabağ dinləmələri"ndə də bir tərəfdən Azərbaycana qarşı sanksiyalar məsələsi gündəmə gətirilmişdi, digər tərəfdənsə Dağlıq Qarabağın "repressiv dövlət" olan Azərbaycanın tərkibində qalmasının qeyri-mümkünlüyü ətrafında kampaniya təşkil olunmuşdu. Yaxud, 2016-cı ildə ABŞ Konqresinin Tom Lantos İnsan Hüquqları Komissiyasını təşkil etdiyi anti-Azərbaycan dinləmələrində Əli Kərimlinin oğlu Türkel Kərimli, həm də həmin vaxt Dağlıq qarabağdakı separatçı rejimin başçısı olan Bako Saakyanın oğlu Armen Saakyan birlikdə öz anti-Azərbaycan fəallıqları ilə seçilmişdilər.

Nəhayyət sonuncu cəhd - bu ilin oktyabrın 31-də Vaşinqtonda təşkil olunmuş və cəmi 10-11 nəfərin iştirak etdiyi "Azerbaijan: Peaceful protests and torture" adlı tədbirdə "Milli Şura" adlanan qurumun sədri Cəmil Həsənli K.Smitin 2015-ci ildən bəri təkrarladığı çağırışa istinad edərək, bir daha Azərbaycana qarşı "Maqnitski aktı"na bənzər sanksiyaların tətbiqini gündəmə gətirməyə çalşdı. Maraqlıdır ki, Cəmil Həsənli və ətrafının ABŞ-da Azərbaycana qarşı təşkil olunmuş tədbirdə sanksiyalardan danışdığı bir zamanda, qondarma "DQR"-in nümayəndə heyəti Konqresdə və digər instansiyalarda görüşlər keçirirdi. Həmin görüşlərdə nə danışıldığını və hansı iddiaların irəli sürüldüyünü xatırlatmağa ehtiyac yoxdur. Lakin artıq neçənci dəfədir ki, Azərbaycanın radikal müxalifət nümayəndələri və erməni separatçılarının həm Avropada, həm də ABŞ-da təşkil etdiyi tədbirlərin sinxronluğu diqqəti xüsusi cəlb edir. Deməli, eyni vaxtda bir tərəfdən "Milli Şura" tədbir təşkil edərək Azərbaycanda "dözülməz vəziyyətin" olduğunu isbat etməyə çalışır, digər tərəfdənsə erməni separatçıları "Azərbaycan kimi dövlətdə ermənilərin yaşamasının qeyri-mümkünlüyü" məsələsini gündəmə gətirirlər. Bu dərəcədə xəyanət və riyakarlıq nümunəsinə, yəqin ki, Pavlik Morozov da qibtə edərdi.

Təsadüfi deyil ki, oktyabrın 31-də təşkil olunmuş tədbirin gedişində Cəmil Həcənlinin və digərlərinin iddiaları Türkiyənin ABŞ-dakı diplomatının belə kəskin etirazına səbəb oldu. Türkiyəli diplomatın tədbirdə Azərbaycanın torpaqlarının Ermənistan tərəfindən işğal olunması faktına toxunulmamasına, Azərbaycanın guya FETO-ya dəstək verməsi barədə iddialara kəskin reaksiyası, internet azadlığının guya məhdudlaşdırılmasının deyil, torpaqların işğalının Azərbaycanın əsas problemi olduğunu diqqətə çatdırması, bizim "milli demokratların" susqunluğu fonunda erməni fəalın təxribatçı sualını layiqincə cavablandırması, sözün əsl mənasında, bir vətənpərvərlik, dövlət və xalq təəssübü nümunəsidir. Onun bizim müxaliflərdən "oktyabrın 30-da qondarma "DQR"-in başçısının Konqresin binasında keçirdiyi tədbirə etiraz edən azərbaycanlılara niyə qoşulmadınız" sualı və "ümumiyyətlə, münaqişənin həlli məsələsində müxalifətin mövqeyi bilinmir" fikrini dilə gətirməsi isə həqiqətən də, utancverici bir haldır.

Prezident İlham Əliyev dəfələrlə çıxışlarında hökumət üzərində ictimai nəzarətin gücləndirilməsinin zəruriliyi barədə danışıb və əhalini bu məsələdə daha fəal olmağa çağırıb. Əgər ictimai nəzarət bir tərəfdən cəmiyyətdə şəffaflığın, qanunçuluğun təmin olunması və hökumətin daha yaxşı işləməsi üçün zəruridirsə, digər tərəfdən də ölkənin əsas siyasi partiya institutlarının, onların başında dayanan şəxslərin fəaliyyətinin araşdırılması, anti-milli hərəkətlərinin sərt qınanması, belə xəyanətkarların siyasi səhnədən silinməsi üçün təsirli mexanizmlərin düşünülməsini zəruri edir. Cəmiyyət öz ambisiyalarını reallaşdırmaq üçün hər cür antimilli aktlara qoşulan, hətta Dağlıq Qarabağ kimi ümummilli problemin həllində belə üzdə "ura patriotluq" edən, arxada isə əks fəaliyyət göstərənlərə qarşı qəti mövqe nümayiş etdirməlidir. Artıq Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli yolunda əsas maneənin beynəlxalq birliyin susqunluğu ilə yanaşı, həm də bu tipli antimilli ünsürlərin düşmənlərimizin mövqeyini gücləndirən xəyanəti olduğunu başa düşməyin zamanı çatıbdır".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistan 102-ci bazanın dəstəyindən məhrum olur

**Azərbaycana qarşı təcavüz siyasətini davam etdirən Ermənistanın bu vaxta qədər Rusiyaya, xüsusən də ərazisində yerləşdirilən 102-ci hərbi bazaya güvəndiyi heç kimə sirr deyil. Amma Nikol Paşinyan iqtidarının yürütdüyü siyasət və Moskva ilə yaranan problemlər bu gedişlə 102-ci hərbi bazanın Ermənistandan çıxarılmasını istisna etmir.**

Çünki Paşinyan hakimiyyətində təmsil edilən müəyyən şəxslərə bağlı qurumlar bu xüsusda fəal iş aparır. Onlara Qərbdən də hər cür dəstək verilir. Hətta prosesə qonşu Gürcüstan da cəlb olunub.

Burada bir məqamı da xatırlatmaq yerinə düşərdi ki, Ermənistan işğal siyasətinin davam etməsində daim 102-ci bazaya güvəndiyini heç vaxt gtzlətməyib. Onlar hətta son vaxtlara qədər də bu fikirdə idilər ki, Dağlıq Qarabağ münaqişəsi hərbi müstəviyə keçəcəyi təqdirdə Ermənistan bu bazanın yardımından istifadə edə bilər. Amma 2016-cı ilin aprel döyüşləri zamanı üzə çıxan reallıq ermənilərin bu ümidini tammailə alt-üst etdi. O vaxta qədər də 102-ci hərbi bazaya qarşı fəal iş aparan Nikol Paşinyanın hakimiyyətə gəlişindən sonra bu bazaya qarşı Ermənistanda fəaliyyətin genişlənməsi müşahidə olunur. Maraqldır ki, Ermənistanla yanaşı, hazırda Gürcüstanda da bu bazaya qarşı fəal təbliğata start verilib. Gürcüstanın "Rezonansi" qəzeti yazır ki, Rusiyanın Ermənistanda hərbi mövcudluğunun güclənməsi Gürcüstan üçün real təhlükədir. Qəzetin yazdığına görə, Rusiya və Gürcüstan arasında hərbi qarşıdurma vəziyyətində Gümrüdə yerləşdirilən 102-ci rus hərbi bazası Gürcüstana qarşı istifadə olunacaq. Hərbi analitik Vaxtanq Mayisayan qəzetə bildirib ki, Rusiya hərbi bazasının yerləşdirilməsi nəzərə alınmaqla, Gürcüstan mümkün hədəfə çevrilir: "Bənzər sxemlə Rusiya Abxaziyada da fəaliyyət göstərir, beləliklə Gürcüstan, faktiki olaraq, halqa içərisindədir". Hərbi ekspertin sözlərinə görə, Rusiya və Gürcüstan arasında yeni hərbi əməliyyatlar halında təhlükə var. Belə ki, qarşıdurma baş verəcəyi təqdirdə rus qoşunları Ermənistandan Gürcüstanın Samtsxe-Cavaxeti rayonuna doğru hərəkət edəcək və Borjomi dərəsinə daxil olacaq. Qəzetin məlumatına görə, bundan sonra rus qüvvələri Abxaziya və Cənubi Osetiyada yerləşdirilən rus hərbçilərinə qoşulacaq: "İlk zərbə Tiflis, daha sonra, çox güman ki, Kutaisi və Zuqdidi istiqamətində olacaq, Batumiyə zərbə endirilməsi variantı da istisna edilmir".

Xatırladaq ki, bu günlərdə Rusiya 102-ci hərbi bazanın döyüş potensialının yeni və modernləşdirilmiş silah, hərbi texnikalarla təkmilləşdirildikdən sonra iki dəfə artacağını bildirib. Elə bundan sonra Ermənistanda bu bazaya qarşı fəal təbliğata start verilib. Məsələn, erməni politoloq Ara Papyan qeyd edir: "Şərtlərin dəyişməsi haqqında yeni açıqlama olmadığına görə, güman etmək olar ki, 102-ci hərbi bazanın iki dəfə gücləndirilməsi xərclərini erməni tərəfi ödəməyə davam edəcək, yəni xərcimiz iki dəfə artacaq". Onun sözlərinə görə, bu həqiqətən də Ermənistana aid hərbi baza olsaydı, o zaman yanaşma fərqli olardı: "Lakin biz dəfələrlə Rusiya tərəfindən eşitmişik ki, rus bazası Qarabağ məsələsi üzrə Ermənistan-Azərbaycan münaqişəsinə cəlb olunmayacaq. Bizim Türkiyə vəziyyətində də narahatlıqlarımız var ki, bu hərbi bazanın müdaxiləsi, belə deyək, üç gün gecikə bilər". Papyanın sözlərinə görə, Rusiyanın Suriyada da hərbi bazası var, lakin Türkiyəyə qarşı münaqişəyə müdaxilə etməyib, əksinə Türkiyə ilə əməkdaşlıq edir: "Bizim hansı zəmanətimiz var ki, eyni şey Ermənistanda təkrar olunmayacaq?". Erməni politoloq bildirib ki, istənilən hərbi baza təkcə təhlükəsizlik komponenti deyil, eyni zamanda başqa ölkələr üçün hədəfdir: "Yəni Rusiya başqa bir ölkə ilə münaqişə etsə, Ermənistan Respublikasının ərazisi həmin ölkə üçün hədəf olacaq və biz daha həssas olacağıq. Mən hesab etmirəm ki, biz hər hansı münaqişəyə cəlb olunmaq üçün bu hərbi bazaya icazə verə və ya verməyə bilərik: ruslar bu hərbi bazaya tam nəzarət edir".

Paşinyan hakimiyyətinə yaxınlığı və radikallığı ilə seçilən "Sasna Tsrer" partiyası da bazanın çıxarılmasını tələb edənlər sırasındadır. Partiyanın katibliyinin koordinatoru Varujan Avetisyan baza ilə bağlı qeyd edib ki, erməni-rus əlaqələrinin bütün sistemi köklü şəkildə yenidən nəzərdən keçirilməlidir:

"Bunların xarakterinə görə müstəmləkə olduğu müddətcə, Rusiya öz maraqlarını maraqlarımız hesabına həyata keçirəcək. Rusiya hərbi bazası da müstəsna olaraq Rusiya maraqlarını maraqlarımız hesabına müdafiə etmək üçün Ermənistan ərazisindədir. Buna görə də, hazırda regionda artan gərginliklər fonunda Rusiyanın bu cür yanaşması, fəaliyyətləri həyati maraqlarımıza toxuna və bizim üçün ekzistensial təhdidlər yarada bilər". Avestisyan qeyd edib ki, bir gün Ermənistanda heç bir dövlətin hərbi bazası olmayacaq: "Rusiya beynəlxalq standartlara uyğun olaraq ərazimizi istifadə etdiyinə görə pul ödəməlidir, yalnız raket əleyhinə müdafiə qüvvələri və vasitələri buraxılmalıdır, quru bölmələri isə çıxarılmalıdır, çünki onların mövcudluğu Ermənistanın müstəqilliyinə və subyektivliyinə təsir edir". Bunun ardınca Helsinki Vətəndaş Assambleyasının Vanadzor ofisinin rəhbəri Artur Sakuntsun "Rusiyanın Ermənistandakı hərbi iştirakı və onun insan haqlarına təsiri" mövzusunda hesabatı üzə çıxıb. Artur Sakuntsun hesabatı Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində maliyyələşdirilib. Hesabatda deyilir ki, Ermənistanın əlində 102-ci hərbi bazanın fəaliyyətinə nəzarət və monitorinq üçün heç bir mexanizm yoxdur. Hesabatda bazanın fəaliyyətinin xronologiyası, hərbi bazaya dair iki ölkə arasında imzalanmış bütün sənədlər, Rusiya hərbçilərinin iştirakı ilə baş vermiş insidentlər, xarici hərbi iştirak və insan haqları arasında əlaqə təqdim olunur. Sakunts rus hərbi bazasının fəaliyyətinə nəzarət etmək mexanizmlərinin yoxluğu nəticələri haqqında danışarkən Moldova təcrübəsini təqdim edir: "Bu, Moldovanın Dnestryanı bölgəsində insan hüquqlarının pozulması üçün kifayət qədər ciddi problemə səbəb olub və bununla bağlı Avropa Məhkəməsinin məşhur "İlasku Moldova və Rusiyaya qarşı" adlı qərarları da var. Qərarda Rusiya Federasiyası günahkar kimi tanınıb. Belə ki, Rusiya bu regionu de-fakto idarə edərək insan hüquqlarının pozulmasına görə cavabdehdir". Sakunts bildirib ki, Ermənistan dövlət büdcəsindən rus hərbi bazasının həyat fəaliyyəti üçün ayrılan maliyyə vasitələri belə gizli saxlanır. Onun sözlərinə görə, Ermənistanın müdafiə büdcəsi açıqdır, lakin rus hərbi bazasına nə qədər pul ayrıldığı dövlət sirridir. Sakunts qeyd edib ki, bu, konseptual baxımdan anlaşılmazdır. Məsələyə artıq Rusiyanın Ermənistandakı səfirliyi sərt reaksiya verib. Səfirlik bildirir ki, 102-ci hərbi bazanın fəaliyyətinin müxtəlif aspektləri barədə erməni cəmiyyətinin məlumatlandırılmasının vacibliyini şübhə altına almır və bu planda Rusiya tərəfi dialoqa açıqdır. "Lakin sual veririk: nəyə görə ölkələrimizin nə az, nə çox, suverenliyinə və təhlükəsizliyinə aid olan, ikitərəfli münasibətlərin fundamental məsələlərinə dair "araşdırmalar" Qərb fondlarından maliyyələşdirilir? Rusiya hərbi kontingentinin Ermənistanda mövcudluğunun öldürücü nəticələri barədə çoxsaylı "müstəqil" araşdırmaların müəlliflərinin məqsədi nədir? Sonda iki dövlətin tarixi əlaqələrinin dağıdılması kimə sərfəlidir?". Səfirlik bu cür "müstəqil araşdırmaların" obyektivliyinin də sual altında olduğunu bildirir. Doğrudur, Rusiya səfirliyinin qəzəbli bəyanatlarında Ermənistan hakimiyyətinin 102-ci bazaya qarşı aparılan təbliğatda iştirakı kənarda saxlanır. Lakin "Qərbdən maliyyələşən həmin QHT-lər və KİV-lər" hamısı əslində elə Nikol Paşinyanı hakimiyyətə gətirən qüvvələr arasında yer alıb. Özü də onlar indiki Ermənistan hakimiyyətinin kursunun müdafiəçiləridir. Digər tərəfdən, Paşinyan hökumətinin bir çox üzvlərinin Rusiyaya qarşı bəyanatları və fəaliyyətləri barədə faktlar Rusiya mətbuatında da dəfələrlə sadalanıb. Bu baxımdan Rusiya səfirliyinin bəyanatına həm də hökumətə ünvanlanmış mesajlar olduğunu elə erməni mediası özü də xüsusi vurğulayır. Hesab edilir ki, vəziyyət bu həddə davam edərsə, Moskva bazanı Ermənistandan çıxara bilər. Bunu Rusiyanın birinci dərəcəli dövlət müşaviri, siyasi analitik Modest Kolerov da istisna etmir. Kolerovun sözlərinə görə, Gümrüdə yerləşdirilmiş 102-ci rus hərbi bazasının döyüş qabiliyyətinin iki dəfə artırılması faktına baxmayaraq, onun Ermənistandan çıxarılması planı Ermənistanın hazırkı hakimiyyətinin fəaliyyət perspektivində mümkündür: "Müvəqqətilərin hakimiyyəti gec ya tez sona çatacaq. Rusiya Azərbaycanla cəzbedici, Türkiyə ilə hazırda müvəqqəti heyranedici münasibətlərə malik olaraq sabahın təhdidləri haqqında düşünür.

Bunlara rəğmən, mən bir daha təkrar edirəm ki, bazanın çıxarılması kursunu Paşinyan hökumətindən gözləyirəm". Digər ekspertlər də prosesin elə bu istiqamətdə getdiyini vurğulayır. Aydındır ki, bazanın Ermənistandan çıxarılması istiqamətində tələbləri Moskva asanlıqla qəbul etməyərək, Ermənistana təzyiqləri artıracaq. Bu təzyiqlərin həm də Qarabağ kartı üzərindən olması tamamilə gözləniləndir. Məhz bu şəraitdə Moskvanın fəal dəstəyi ilə münaqişənin həllinin tezləşməsi də istisna olunmur. Amma artıq bir şey tam dəqiqdir ki, Qarabağ məsələsində ermənilərin 102-ci baza ümidləri heç vaxt doğrulmayacaq.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Son dövrlərə qədər Ermənistanın xarici iqtisadi fəaliyyətində ən çox ümid bəslədiyi ölkələrdən biri qismində İran çıxış edirdi. Amma Tehranın diqqətini daha çox Azərbaycanla həyata keçirilən transmilli layihələrə yönləndirməsi Ermənistanda böyük məyusluq yaradıb.**

# Bakı İrəvanın Tehran ümidləri üzərindən xətt çəkdi - "Yaddan çıxmış ölkəyə çevriləcək..."



Ermənistanda dərc edilən "Qrapark" qəzeti yazır ki, İrəvanın bütün cəhdlərinə baxmayaraq, İranı maraqlandıran əsas məsələ Azərbaycanla birgə həyata keçirilən layihələrdir:"Çünki həmin layihələr praktiki icra mərhələsindədir və İran indi məhsullarını Azərbaycan üzərindən müxtəlif bazarlara çıxarmağa daha çox diqqət ayırır. Ermənistanla nəzərdə tutulan layihələr isə hələ də kağız üzərindədir və vəziyyətin yaxın tezlikdə dəyişəcəyinə hansısa ümid də yoxdur. Bunun əvəzində Azərbaycanla birgə həyata keçirilən "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi tam işə düşdükdən sonra Ermənistanın İranın yadından çıxması tamamilə gözləniləndir. Sanksiyalara görə iqtisadi çətinliklə üzləşən İranı Ermənistan daha az cəlb edir və Tehran üçün indi ən vacib məsələ "Şimal-Cənub"un mümkün qədər tez yekunlaşmasıdır".

Hesab edilir ki, "Şimal-Cənub" dəhlizi işə düşdükdən sonra Ermənistan həqiqətən də yaddan çıxan bir ölkəyə çevriləcək. Bu fonda isə İran Azərbaycanla əlaqələri daha sürətlə genişləndirməyi düşünür. Bunu İranın yollar və şəhərsalma naziri Məhəmməd İslami də xüsusi olaraq vurğulayır. Nazir qeyd edir ki, İranla Azərbaycanı yalnız dəmir yolları deyil, eyni zamanda, avtomobil yolları birləşdirəcək. O bildirib ki, hazırda İranın Ərdəbil və Rəşt şəhərləri ilə Astara şəhəri arasındakı magistral yollarda yenidənqurma işləri aparılır: "Bu yollar genişləndirilir və ağır yüklərin daşınması üçün möhkəmləndirilir. Azərbaycanda Ələt-Astara (Azərbaycan) magistral yolu yenidən qurularaq istifadəyə verilib. Bu yolla İranın Astara şəhərinə daxil olan yük maşınları Astara-Ərdəbil magistralı ilə İranın Qərb vilayətlərinə, Astara-Rəşt yolu ilə Şərq vilayətlərinə gedə bilər".

Nazir nəzərə çatdırıb ki, Azərbaycanla İran arasındakı avtomobil yolları yalnız iki ölkəni deyil, həm də Rusiyanı birləşdirəcək. Bu yollar İranla Azərbaycan və Rusiyanın cənub regionları arasındakı ticarət əlaqələrinin inkişafına təkan verəcək. Onun sözlərinə görə, qarşıdakı günlərdə İranda Miyana-Bastanabad dəmir yolu xətti istismara veriləcək ki, bu da "Şimal-Cənub" dəhlizi ilə daşınan yüklərin mənzilbaşına çatdırılması vaxtını 5 saat azaldacaq. Nazir bildirib ki, bu dəmir yolu vasitəsilə İranın qərb regionları da dəhlizdən istifadə edə biləcək. Qərb regionlarında fəaliyyət göstərən istehsal müəssisələri ixrac mallarını birbaşa "Şimal-Cənub" dəhlizi ilə hərəkət edən qatarlara yükləyəcək. İranlı nazirin açıqlamasından aydın olur ki, "Şimal-Cənub" dəhlizi, sanksiyalara baxmayaraq, tam gücü ilə fəaliyyət göstərəcək. Məsələnin mahiyyəti ondan ibarətdir ki, ABŞ ilin əvvəlində İranın Çabahar limanını sanksiyalardan azad edib ki, bu da ölkənin tranzit imkanlarını daha da genişləndirib. Bu səbəbdəndir ki, dəhliz vasitəsilə Cənub Şərqi Asiya və Körfəz ölkələrindən Avropaya göndərilən yüklərin də həcmində artım müşahidə edilib. Həcmin daha da artması gözlənilir. Bu yüklər isə İrandan Azərbaycana, daha sonra Rusiya və Avropa ölkələrinə daşınır. Aydın olur ki, İranın tranzit imkanının artması Azərbaycan üzərindən daşınan yüklərin həcminin çoxalmasına səbəb olur.

Hazırda Cənub Şərqi Asiya və Körfəz ölkələrindən İrana daxil olan yüklər Qəzvin-Rəşt-Astara(İran)-Astara(Azərbaycan) dəmir yolu ilə Azərbaycana, buradan Rusiyaya, daha sonra isə Avropaya daşınır. Yüklərin Azərbaycan üzərindən daşınması isə ölkəmizin tranzit gəlirlərinin artmasına səbəb olur. Bu fonda xatırladaq ki, "Şimal-Cənub" dəhlizi layihəsi çərçivəsində Azərbaycan tərəfi öz üzərinə düşən vəzifələri yerinə yetirib. Astara stansiyasından İran dövlət sərhədinə qədər birxətli 8,3 kilometr dəmir yolu çəkilib və Astara çayı üzərində dəmir yolu körpüsü tikilib. Eyni zamanda, İran Astarasında Azərbaycan tərəfindən 35 hektar ərazidə dəmir yolu stansiyasının tikintisi və yüklərin boşaldılması üçün terminalların inşası davam edir.

Onu da xatırladaq ki, 2018-ci ilin mart ayında Astara-Astara dəmir yolunun birləşdirilməsi layihəsinin ilk fazası və yük terminalı istismara verilib və eyni zamanda, taxıl terminalının təməli qoyulub. Bu il martın 6-da isə "Şimal-Cənub" dəhlizinin əsas hissəsini təşkil edən Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolunun Qəzvin-Rəşt hissəsinin açılışı olub. Yaxın gələcəkdə Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xətti də tikilib istifadəyə veriləcək. Bütün bunlar hər iki ölkənin nəqliyyat-tranzit və iqtisadi-ticarət potensialını gücləndirəcək. Məhz bu vəziyyətdə, həqiqətən də, Ermənistanın İran üçün hansısa əhəmiyyəti də qalmayacaq. Çünki Tehranın maraq dairəsində olan ölkə məhz Azərbaycandır. Özü də tərəflər arasında əlaqələr təkcə nəqliyyat və ticarət sektorunu əhatə etmir. İranla Azərbaycanın enerji sahəsində də əməkdaşlıq əlaqələri yüksələn xətlə inkişaf edir. İranın enerji naziri Rza Ardakian bu xüsusda bildirib ki, hazırda iki qonşu ölkə arasında təbii qaz və elektrik enerjisi mübadiləsi həyata keçirilir. Bununla yanaşı, Araz çayı üzərində birgə inşa edilən su elektrik stansiyasının tikintisi davam etdirilir. Nazir onu da vurğulayır ki, hazırda Astara şəhərində 500 meqavatt gücündə elektrik stansiyası tikilir: " Azərbaycanın bu stansiyanın tikintisinə sərmayə yatırması məsələsi müzakirə edilir. Stansiya istismara verildikdən sonra həm İranın, həm də Azərbaycanın sərhəd bölgələri dayanıqlı elektrik enerjisi ilə təmin olunacaq".

Ardakian qeyd edib ki, sərhədyanı bölgənin enerji ilə təminatı əhalinin enerji tələbatını ödəməklə yanaşı, istehsal və emal müəssisələrinin yaranmasına və bölgənin iqtisadiyyatının inkişafına səbəb olacaq. Bütün bunlar onu göstərir ki, Azərbaycan İranla birgə həyata keçrilən layihələrə həm də böyük miqdarda sərmayə yatırır və bu da Tehranı həmin layihələrdə xüsusi maraqlı tərəf edir. İranın Ermənistanla birgə layihələrində isə erməni tərəfi hansısa vəsait qoyuluşunu həyata keçirmir. İran da belə layihələri təkbaşına maliyyələşdirmək istəmir. Ona görə də İran-Ermənistan layihələri bu vaxta qədər kağız üzərində qalıb və görünən budur ki, bundan sonra da qalmaqda davam edəcək.

***Tahir TAĞIYEV***

**Dünya dövlətlərinin böyük əksəriyyətinin bu gün üzləşdiyi ən böyük problemlərdən biri də xarici borcla bağlıdır. İndi hətta ən inkişaf etmiş Qərb dövlətləri belə bu problemdən getdikcə daha çox əziyyət çəkməkdədir. Amma bu istiqamətdə Azərbaycanda qeydə alınan vəziyyət sözügedən sahədə ölkəmizin sözün əsl mənasında uğur nümunəsi ortaya qoyduğunu deməyə əsas verir.**

# Azərbaycanın xarici borc məsələsi dünya reytinq qurumlarını "ayağa qaldırıb"

*İslahatlar xarici borc məsələsində Azərbaycana mühüm üstünlüklər gətirir*




Elə nüfuzlu maliyyə qurumları da bəyan edir ki, Azərbaycan iqtisadiyyatında həyata keçirilən islahatlar ölkənin ümumi iqtisadi durumuna, o cümlədən xarici borc məsələsinə müsbət istiqamətdə əsaslı surətdə təsir edir. Məhz bundan irəli gəlir ki, "Moody's" reytinq agentliyi son hesabatında Azərbaycanın mövqeyini sabit "Ba2" səviyyəsində təsdiqləyib. Hesabatda qeyd edilir ki, maliyyə sektorundakı islahatlar, xarici borc məsələsi ilə yanaşı, əhali kütləsinin borc risqlərini azaltmaq və kredit verilməsinin bərpasına yönəlib. Qeyd olunur ki, böyük həcmli xarici aktivlər üzrə xalis kreditor statusu və neftqaz gəlirlərinin effektiv surətdə digər sektorlara yönəldilməsi hesabına daxili siyasi sabitliyin təmin olunması Azərbaycanın mövqeyini daha güclü hala gətirir. Həmçinin hesabatda qeyd olunur ki, fiskal və maliyyə sektorunda aparılan islahatlar Azərbaycanın suveren kredit etibarlılığının zərbələrə, elastikliklərə davamlılığını artıra, hökumətin borc yükünü və bank sistemi risqini aşağı sala bilər.

Daha əvvəl "Fitch" beynəlxalq reytinq agentliyi də Azərbaycanın güclü xarici valyuta balansına və aşağı dövlət borcuna malik olduğunu açıqlayıb. Qurum bunun ölkənin iqtisadi mövqelərinin yaxşılaşmasına əhəmiyyətli dərəcədə təsir etdiyini də bəyan edib. Bunlar fonunda hesab edilir ki, həyata keçirilən islahatlar qarşıdakı dövr ərzində xarici borc məsələsində Azərbaycanın mövqelərinin daha əlverişli həddə yüksəlməsinə imkan verəcək. Hazırda Azərbaycanın xarici dövlət borcunun ümumi məbləği şərti 8,9 milyard dollardır. Bu isə ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Amma qarşıdakı dövr ərzində Azərbaycan bu məbləği daha da azaltmağı düşünür. Qeyd edək ki, gələn il daxili borclanma ilə bağlı limit 400 milyon manat, xarici borclanma ilə bağlı limit 1 milyard manat, dövlət zəmanətləri ilə bağlı limit isə 1 milyard manat nəzərdə tutulub. Bütün bunlar o deməkdir ki, Azərbaycan getdikcə daha az xarici borclanmaya gedir. 2020-ci ildə Azərbaycanın dövlət büdcəsində dövlət borcuna xidmətlə bağlı xərclərin 1 milyard 828,16 milyon manat olacağı gözlənir. Sənədlərə əsasən, bu, 2019-cu ilin proqnozu ilə müqayisədə 21,7% azdır.

Gələn il hökumət xarici borcların qaytarılmasına 1 milyard 695,012 milyon manat, daxili borcların qaytarılmasına isə 133,148 milyon manat yönəltməyi planlaşdırır. Digər tərəfdən, Azərbaycan həm də iqtisadi aktivliyi artırmaq üçün xarici borcu daxili borcla əvəzləməyi düşünür. Elə bu günlərdə Mərkəzi Bankın sədri Elman Rüstəmov da bu xüsusda maraqlı bir açıqlama vermişdi. Bununla bağlı o qeyd edirdi: "Düşünürəm ki, xarici borcun bir hissəsini daxili borca transformasiya etmək lazımdır. Bu, yerli borc bazarının inkişafına kömək edəcək". Digər tərəfdən, dövlət zəmanəti altında götürülmüş xarici kreditlər iqtisadiyyatın real sektoruna yönəldilib ki, bu da son nəticədə Azərbaycan iqtisadiyyatının artım templərinin yüksəlməsinə səbəb olacaq. Onu da xatırladaq ki, bir müddət əvvəl dövlət başçısı tərəfindən "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya" təsdiq edilib. Burada da əsas məqsədlərdən biri xarici borcun tədricən azaldılmasıdır. Belə ki, 2025-ci ildə Azərbaycanda xarici dövlət borcunun məbləğinin 6,5 milyard dollaradək azalması nəzərdə tutulur. Bu, ÜDM-də borc səviyyəsinin indiki 19 faizdən 12 faizədək azalması deməkdir. Hazırda 49 milyard dollar təşkil edən valyuta ehtiyatları isə borc məsələsində Azərbaycana yeni manevr imkanları qazandırır.

Bütün bunlar, yuxarıda qeyd olunduğu kimi, xarici borc məsələsində Azərbaycanın nümunəvi bir model yaratmasına imkan verir. Halbuki, dünyanın əksər ölkələrində tamam fərqli vəziyyət hökm sürür. Məsələn, ən böyük iqtisadiyyata malik ABŞ-ın dövlət borcu rekord göstəriciyə çataraq 23 trilyon dollar təşkil edib. Dövlət borcunun artması prezident Donald Trampın hakimiyyətdə olduğu dövrdə müşahidə olunmağa başlayıb. Belə ki, 2017-ci ildə onun prezident vəzifələrini yerinə yetirməyə başladığı vaxt borcun həcmi 19,9 trilyon dollar olub. 2019-cu ildə büdcə defisiti 3 trilyon dollar səviyyəsində dayanıb. Trampın 2017-ci ildən həyata keçirdiyi vergi siyasəti gələcək onillər ərzində büdcə defisitini 2 trilyon dollar artırmalıdır. Amerikanın "AllianceBerstein" investisiya şirkətinin analitikləri də ABŞ-ın dövlət borcunu hesablayıb. Onlar qeyd edirlər ki, bu il dövlət borcu göstəricisi iqtisadiyyatın ümumi həcminin 1832 faizini təşkil edib. Onların bildirdiyinə görə, 2026-cı ilədək dövlət borcu 30 trilyon dollaradək arta bilər. Halbuki, həmin vaxta qədər Azərbaycanın xarici borcu ümumi daxili məhsula nisbətən 12 faizə kimi azalacaq.

Yeri gəlmişkən qeyd edək ki, ABŞ-da baş verənlər Azərbaycanda da diqqətlə izlənilir. Çünki Azərbaycan ABŞ-ın qiymətli kağızlarına sərmayə qoyub və valyuta ehtiyatlarını bir qismini də dollarda saxlayır. Amma ABŞ-ın artan borcu bu ölkədə defolta səbəb ola bilər ki, bu da həm qiymətli kağızları, həm də dolları dəyərdən sala bilər. Bu səbəbdən ABŞ-da baş verənlər ölkəmizdə də diqqətdə saxlanır. ABŞ-da isə proseslər heç də ürəkaçan məcrada inkişaf etmir.

Belə ki, 1980-ci ildə 908 milyard dollar olan borc, son 39 ildə büdcə kəsrinin borc hesabına maliyyələşməsi sayəsində astronomik həddə artıb. Dövlət borcu, demək olar, bütün digər ölkələr üçün ciddi problem sayılır və ölkələr dövlət borcunu ödəyə bilmədiklərinə görə defolt risqi ilə qarşılaşırlar. ABŞ hökuməti isə dayanmadan borclanır. Qeyd edək ki, ABŞ dövlət borcunun yaranmasının səbəbi büdcə gəlirləri xərclərdən az olduğu üçün dövlətin qiymətli kağızlarını tədavülə buraxaraq maliyyələşməni həyata keçirməsidir. Amma bu hal ABŞ-ı ciddi borc batağlığına sürükləyir.

***Nahid SALAYEV***

# Şübhəli yollarla dərəcə almış alimlərin elmi adlarının geri alınması mexanizmi gündəmdə...

**Son illər elmin idarə edlməsi sahəsində müəyyən boşluqların yaranması səbəbindən elm sahəsinə elmə dəxli olmayan insanların kütləvi axını baş verdi. Heç bir elmi fəaliyyət göstərməyən, elm sahəsində hər hansı bir nəticəsi olmayan bəzi millət vəkillərinin və dövlət məmurlarının öz vəzifələrindən sui-istifadə edərək elmi iş müdafiə etməsi, elmi tutullara yiyələnməsi elm adamları tərəfindən vaxtaşırı olaraq tənqid edilib.**

***İlqar Orucov:*** *"Keçmişdə saxta yollarla alimlik dərəcəsi alan adamların elmi dərəcələrinin ləğv edilməsi ilə bağlı mexanizmin yoxluğu..."*

Bu gün kifayət qədər məmur və millət vəkili var ki, elmlər doktoru, professor elmi dərəcəsi və adı alıb. Son zamanlar müxtəlif vəzifələr tutan insanların elmi adlara, dərəcələrə maraq göstərməsi artıq bir xəstəlik, epidemiya halı alıb.

Azərbaycan Milli Elmlər Akademiyasında rəhbər dəyişikliyi baş verdikdən sonra bu qurumda bəzi mənfi təzahürlərin aradan qaldırılması tendensiyasına başlandığı qeyd edilir. Aktual olan məsələlərdən biri saxta yollarla elmi dərəcə və elmi ad alan bəzi dövlət məmurlarının və millət vəkillərinin elmi dərəcələrinin ləğv edilməsi ilə bağlıdır. Artıq sosial şəbəkələrdə yayılan məlumatlara görə, elmi dairələrdə bəzi millət vəkilləri və məmurların elmi dərəcələrinin ləğv edilməsi gözlənir. Gəzən söz-söhbətlərə görə, onlarla bağlı təkrar attestasiya keçirilə bilər.

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov "Bakı-Xəbər"ə bildirdi ki, elmi ictimaiyyəti ciddi narahat edən bu məsələ olduqca aktualdır. "Çox ciddi və aktual məsələyə toxunmusunuz. Əslində, dövlətdə yüksək vəzifə tutan məmurların, eyni zamanda, millət vəkillərinin, eləcə də iş adamlarının, bir sözlə, elmə aidiyyəti, elmi fəaliyyəti olmayan insanların elmi iş müdafiə edərək elmi ad almaları hər zaman cəmiyyət tərəfindən narazılıqla qarşılanıb. Bununla bağlı kəskin fikirlər səsləndirilib. Xatırlayıram ki, hətta ulu öndər Heydər Əliyevin dövründə belə faktlar baş vermişdi. O zaman ulu öndər birmənalı olaraq elmə aidiyyəti olmayan dövlət məmurlarının elmi iş müdafiə etməsini qadağan etmişdi. O bu qadağanı o dövlət məmurlarına qoymuşdu ki, onlar yüksək vəzifələr tuturdular və onların heç bir elmi fəaliyyəti yox idi, elmlə məşğul olmurdular. Ulu öndər elmə aidiyyəti olmayan dövlət məmurlarının elmi ad almasını hər zaman kəskin pisləyir və bunun zərərli hal olduğunu deyirdi. Belə insanların elmi iş müdafiə etməsilə bağlı, qeyri-rəsmi də olsa, bir qadağa vardı. Bu qadağaya da əməl olunurdu və o adamlar müdafiə edə bilmirdilər. Onların "alim olmaq" arzuları həmişə ürəklərində qalırdı. Hətta o alimlərlə görüşlərindən birində deyirdi ki, məmurlar var akademik olmaq istəyirlər, elmi dərəcə almağa can atırlar... Ulu öndər hər zaman bu hala qarşı mübarizə aparırdı.

Sonra zaman dəyişdi, bu istiqamətdə artıq müəyyən neqativlər ortaya çıxmağa başladı. Məmurların və millət vəkillərinin elmi dərəcələr alması elmin nüfuzdan düşdüyü zamanlara təsadüf etdi, o dövrdə bir çox elm adamı ölkəni tərk etmişdilər, bunun nəticəsində də elmdə boşluqlar yaranmışdı. Bu vəziyyətdə elə adamların elmə marağı artmağa başladı. Bir çox işbaz elmin idarə edilməsi sahəsində yaranan boşluqlardan sui-istifadə edərək, bu sahəyə kütləvi axın etməyə başladı. Onlar "öz fəaliyyətlərini" ortaya qoydular. Son bir neçə ildə isə millət vəkilləri, məmurlar, işbazlar, iş adamlarının elmi dərəcə alması daha da kütləviləşib və kəskin hal alıb. Bu o həddə çatdı ki, bu halın qarşısının alınması üçün Prezident Administrasiyası dövlət məmurlarının elmi iş müdafiə etməsini məhdudlaşdırmaq üçün Administrasiyadan rəsmi icazə alınması məsələsini ortaya qoydu. Amma deputatlar, iş adamları, hüquq-mühafizə orqanlarında işləyənlər elmi iş müdafiə etməkdən çəkinmədilər, onlar yenə "elmə gəlməyə" başladılar. Artıq elmi ad almaq bir dəb halına çevrildi".

İ.Orucov qeyd etdi ki, millət vəkilləri, iş adamlarının kütləvi surətdə elmi ad alması ilə bağlı Ali Attestasiya Komissiyasının keçmiş rəhbərliyinə qarşı ciddi ittihamlar vardı. İ.Orucovun sözlərinə görə, ittihamların əsas səbəbi elmdə plagiatlığın, oğurluğun artması, eləcə də elmi işləri o adamların özləri yazmaması idi. "Elmi işlərin müdafiəsini Prezident yanında Ali Attestasiya Komissiyası həyata keçirir. O vaxt narazılıqların səbəblərindən biri bu qurumun obyektiv işləməməsi idi. Bu qurumda neqativ hallar çox idi. Bu narazılıq o həddə çatdı ki, Ali Attestasiya Komissiyasının rəhbərliyi dəyişdirildi, qurumun əsasnaməsi yenidən hazırlandı. Bu kimi hallara qarşı mübarizə artıq rəsmi sənədlərdə öz əksini tapır. Amma məsələ ondan ibarətdir ki, bu neqativ məqam Azərbaycan üçün spesifik bir hala çevrilib".

Elmə aidiyyəti olmayan millət vəkilləri, dövlət məmurlarının elmi adlardan məhrum edilməsi məsələsinə gəlincə, İ.Orucov bildirdi ki, bu, "Elm haqqında" Qanunda öz əksini tapmalıdır. "Mövcud qanunvericilikdə bu müddəa öz əksini tapmalıdır ki, ona əsasən də elmi adlar ləğv olunsun. Çox təəssüflər olsun ki, bu kimi hallarla mübarizə mexanizmimiz yoxdur. Elmi adların geri alınması, alim əxlaqı məsələsi, bütün bunlar əlbəttə ki, qanunda öz əksini tapıb. Amma orada keçmişdə saxta yollarla alimlik dərəcəsi alan adamların elmi dərəcələrinin ləğv edilməsi ilə bağlı mexanizmin yoxluğu elmə aidiyyəti olmayan adamların elmi dərəcələrinin əlindən alınmasına maneə törədir.

**Bu baxımdan da inanmıram ki, bu problem o adamların elmi adlarının əllərindən alınması ilə bitəcək. Bu artıq baş verib. Hesab edirəm ki, bundan sonra Ali Attestasiya Komissiyası ciddi mövqe ortaya qoyacaq və belə hallar olmayacaq. Bəzən bu qədər böyük elmi titullar daşıyan adamların çoxu heç bu ada layiq deyillər. Baxırsan siyasi elmlər doktorudur, amma politologiyadan heç bir anlayışı yoxdur, bu elmi adı vəzifəsindən sui-istifadə edərək alıb. Belə adamların elmi dərəcələrinin ləğv edilməsi üçün elə bir mexanizm işlənib hazırlanmalıdır ki, belələri bir də elmə tərəf baxmasınlar" - deyə İ.Orucov vurğuladı.**



*"O zaman ulu öndər birmənalı olaraq elmə aidiyyəti olmayan dövlət məmurlarının elmi iş müdafiə etməsini qadağan etmişdi"*

***İradə SARIYEVA***

# Bakı sərnişin avtobuslarında günün müxtəlif saatlarında müxtəlif qiymətlər? - neqativ hallara böyük şanslar açılır...

**Bu günlərdə Bakı Nəqliyyat Agentliyinin rəsmisi Mais Ağayevin yerli kanallardan birinə verdiyi müsahibədə Bakı sərnişindaşımasında fərqli saatlarda fərqli qiymətlərin olacağı ilə bağlı açıqlaması sosial şəbəkə istifadəçiləri tərəfindən birmənalı qarşılanmadı.**



***Azər Allahverənov:** "Bu həm də insanlar arasında çaşqınlıq yaradar"*

BNA rəsmisinin məlum açıqlamasını daha çox nəqliyyatda qiymət artımına gedən hazırlıq kimi qiymətləndirdilər. Yaranmış ajiotajın fonunda, Mais Ağayev belə bir açıqlama verməli oldu: "Ötən gün kart sisteminə keçid tam başa çatandan sonra gediş haqqının ödənilməsində müəyyən fərqliliklərin ola biləcəyini bildirmişəm. Yəni ortada hələ konkret nəsə yoxdur, sadəcə, fikir olaraq söylənilib bu məsələ. Bəzi KİV bu açıqlamaya istinad edərək, guya marşrut avtobuslarında gediş haqqının artacağı ilə bağlı məlumatlar yayıb. Qiymət artımı olacağı ilə bağlı əsası olmayan bu məsələ insanlar arasında ciddi narahatlığa səbəb olub. Bildirirəm ki, heç bir qiymət artımından söhbət getmir. Digər yandan, qiymət tənzimlənməsi BNA yox, digər müvafiq qurum tərəfindən həyata keçirilir.

Efirdə səslənən fikirlərin izahına gəlincə, bildirim ki, məsələn, Türkiyənin İzmir şəhərində səhər 06:00-07:00, axşam 19:00-20:00 arasında ictimai nəqliyyatda tariflər 50 faiz azaldılır. Bu ildən tətbiq edilən bu təcrübənin məqsədi pik saatlarda daha çox insanın məhz ictimai nəqliyyatdan istifadəsinə nail olmaqdır.

Bizim də məqsədimiz insanların ictimai nəqliyyatdan istifadəsini stimullaşdıran bu cür təcrübələrdən istifadə etməkdir. Bir daha qeyd edirəm, qiymətlərin artacağı ilə bağlı səslənən fikirlər yalandır".

Göründüyü kimi, Mais Ağayev qiymətlərin artacağını tam istisna edir. Heç azalacağını da demir. Ancaq bütün bunların fonunda, fərqli saatlarda fərqli qiymətlərin müəyyənləşməsinin zəruriliyindən danışır. Bakı şəhərində belə sistemə keçidə ehtiyac varmı və bu, neqativ hallar üçün böyük şanslar yaratmaz ki?

*"İndiki mərhələdə qətiyyən buna getmək olmaz"*

Nəqliyyat məsələləri üzrə ekspert Azər Allahverənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Bakı üçün daha çox stabil tarif sistemi məqbuldur: "Bunun karta keçidlə heç bir əlaqəsi ola bilməz. Kartla ödəniş sisteminin təyinatı tamamilə fərqlidir. Bu, insanların rahat ödəniş etməsi, sürücüləri məcburi planlı ödənişdən azad etmək üçündür. Yəni bundan sonra sürücü əməkhaqqı alır və təyin olunmuş qrafik üzrə hərəkət edir. O, müştərini kim tez götürəcək prinsipi üzrə işləməyəcək. Bununla həm də qəza risqi azalmış olur. Qiymət artımı isə tamamilə fərqli səbəblərə görə baş verə bilər. Məsələn, yanacağın qiymətinin qalxması, daşınmanın rentabelli olmaması. Açıq bazar şəraitində isə bu işlə məşğul olan şirkətlərin iş prinsipi bu amil üzrə müəyyənləşir ki, rentabelli deyilsə, niyə işləyirsən? Aydındır ki, burada daha güclü şirkətlər önə çıxmış olur. Fəaliyyətləri varsa, deməli, rentabellik var. Düzdür, bəzən şikayətlənirlər ki, qazanc azdır, avtomobil parkını yeniləyə bilmirlər və s. Mənim sadaladıqlarımın deyilən sistemə keçidlə heç bir əlaqəsi ola bilməz. Fərqli qiymətə keçid təbii ki, müəyyən sui-istifadə hallarına yol aça bilər. Bu həm də insanlar arasında çaşqınlıq yaradar. Çünki günün müxtəlif saatlarında məbləğlərin hesablanması kartda lazım olan məbləğlə bağlı insanların öz işlərini düzgün planlaşdırmaması ilə nəticələnə bilər. İndiki mərhələdə qətiyyən buna getmək olmaz".

**Məhəmmədəli QƏRİBLİ**

# Nazirliyin internet şəbəkəsi ilə fasiləsiz nəzarət etdiyi məktəblərin sayı çoxalır

**Orta ümumtəhsil məktəblərinin Azərbaycan Təhsil Şəbəkəsinə qoşulması, onların tam olaraq internet imkanları ilə təhciz olunması problemi artıq arxada qalıb. Bir vaxtlar orta ümumtəhsil məktəblərinin, xüsusən də rayon və kəndlərdə fəaliyyət göstərən təhsil müəssisələrinin vahid internet şəbəkəsinə qoşulması ilə bağlı ciddi çatışmazlıqlar, problemlər var idi.**



***Məlahət Mürşüdlü:** "Hesab edirəm ki, orta ümumtəhsil məktəblərinin vahid Təhsil Şəbəkəsinə qoşulması tədris prosesini daha effektiv qurmağa imkan yaradacaq"*

Artıq Təhsil Nazirliyi bu problemin həll olunması üçün real addımlar atıb.

Təhsil Nazirliyindən verlən məlumata görə, cari ilin birinci yarımili ərzində Azərbaycan Təhsil Şəbəkəsinə 360-dan çox ümumtəhsil məktəbi qoşulub.

Hazırda bu, respublikanın 3186 ümumtəhsil məktəbini əhatə edir. Ölkə üzrə şagirdlərin 93 faizi, müəllimlərin isə 89 faizi internetlə təmin olunub.

Azərbaycan Təhsil Şəbəkəsi ölkənin ümumtəhsil müəssisələrini, eləcə də təhsil sahəsində dövlət siyasətini həyata keçirən qurumları vahid şəbəkədə birləşdirən ən geniş internet şəbəkəsidir. Layihənin icrasına 2008-ci ildə "2008-2012-ci illər üzrə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılmasına dair Dövlət Proqramı" çərçivəsində başlanıb. Azərbaycan Təhsil Şəbəkəsinin təqdim etdiyi başlıca imkanlar internetə yüksək sürətli çıxışın təmin olunması, internetin zərərli məzmunlardan süzgəclənməsi, internet şəbəkəsinin qurulması və internet üzərindən rabitənin (İP telefoniya, videokonfrans) təşkili, eləcə də şəbəkə və avadanlıqlara texniki dəstək xidmətinin göstərilməsidir.

Azərbaycan Təhsil Şəbəkəsi ölkədə tədris prosesini daha effektiv qurmağa imkan yaratmaqla yanaşı, məsafədən asılı olmayaraq, təhsildə müsbət təcrübənin yayılmasını təmin edir. Artıq ucqar yaşayış məntəqələrindəki məktəblərin müəllim və şagirdləri də Azərbaycan Təhsil Şəbəkəsi vasitəsilə müvafiq elektron resurslardan istifadə edə bilirlər. Şəbəkə çərçivəsində təhsil müəssisələrinə təqdim edilən internet avtomatik rejimdə bütün növ zərərli və tədris prosesinə aid olmayan məzmunlardan təmizlənərək şagirdlərin ixtiyarına verilir. Bu isə, öz növbəsində, uşaq psixikasının internetin zərərli təsirlərindən qorunması ilə yanaşı, tədris prosesində şagirdlərin diqqətinin yalnız faydalı məzmunlar üzərində cəmləşməsinə xidmət edir.

Tanınmış təhsil eksperti Məlahət Mürşüdlü bizimlə söhbətində məktəblərin vahid internet şəbəkəsinə qoşulmasının böyük əhəmiyyəti olacağını qeyd etdi. Bunun təhsilin səmərəli idarə edilməsindən tutmuş, məktəblər arasında yeni əlaqələrin qurulmasına qədər bütün sahələrdə müsbət effekt yaradacağını qeyd edən M.Mürşüdlünün sözlərinə görə, Azərbaycan məktəblərinin inkişfına bunun böyük xeyri dəyəcək. "XXI əsr informasiya-kommunikasiya, texnologiya əsridir. Belə bir dövrdə ölkənin həyatında aparıcı rolu olan orta ümumtəhsil məktəblərinin Təhsil Nazirliyinin vahid Təhsil Şəbəkəsinə qoşulması məktəblərin, şagird və müəllimlərin qarşısında yeni imkanlar açır. Bu şəbəkəyə qoşulmaqla məktəblər həm keyfiyyətli internetlə təmin olunur, həm də məktəblə bağlı xəbərləri, məlumatları daha mobil, çevik şəkildə yaya bilirlər. Şəbəkəyə qoşulma imkan yaradır ki, müəllimlər yeni innovativ metodlardan istifadə etsinlər, elektron dərsliklərlə tanış olsunlar, onlardan asanlıqla istifadə edə bilsinlər. Müəllimlər vahid Təhsil Şəbəkəsinə qoşulmaqla qabaqcıl təcrübələri əldə etməklə yanaşı, onlar həm də dərsliklərin, proqramların, təhsillə bağlı yeniliklərin də müzakirəsinə asanlıqla qoşula biləcəklər. Təhsil şəbəkəsi orta ümumtəhsil məktəbləri üçün daha optimal, daha səmərəli fəaliyyətin təqdim edilməsi üçün münbit zəmin yaradır. Məktəblərin vahid Təhsil Şəbəkəsinə qoşulmasının ayrı-ayrı fənn müəllimləri üçün də əhəmiyyəti böyükdür. Artıq bütün məktəblər Təhsil Şəbəkəsinə qoşulacaq və məktəblərdə gedən proseslər həm izlənəcək, həm də nazirlik məktəblərə dəstək olacaq.

*"Şəbəkəyə qoşulma imkan yaradır ki, müəllimlər yeni innovativ metodlardan istifadə etsinlər"*

Təhsil Şəbəkəsinə qoşulmaqla məktəblərdə keçirilən açıq dərslər, təqdimatlar, tədbirlər şəbəkə vasitəsilə canlı şəkildə izlənəcək. Bu, Təhsil Şəbəkəsinə yalnız şəhər məktəbləri deyil, kənd məktəblərinin də qoşulması çox diqqətçəkəndir. Məktəblərin şəbəkələrə qoşulması, bütün mənalarda, effektiv nəticə verəcək. Onu da deyim ki, Təhsil Şəbəkəsinə qoşulan məktəblərdə monitorinqlərin aparılması da asanlaşacaq. Hesab edirəm ki, orta ümumtəhsil məktəblərinin vahid Təhsil Şəbəkəsinə qoşulması tədris prosesini daha effektiv qurmağa imkan yaradacaq, həmçinin, məktəblər arasında əlaqələri daha da sıxlaşdıracaq, təcrübələrin bölüşdürülməsinə şərait yaradacaq" - deyə M.Mürşüdlü qeyd etdi.

***İradə SARIYEVA***

**Yaşamaq həyatın xanasına ilmə vuraraq yeni naxışlar toxumaq kimi. Hər rəngi bir-birinə yaraşdırıb ipi-ipə calamaq kimi. Həyat xanasının həvəsi ilə tanış olub əzilərək cərgəmizə düzülmək kimi... Uşaqlıq illərində qulağımızın eşitdiyi nağılların şirin xülyaları ilə röyalara dalıb həyatımızı da məhz o nağılların qəhrəmanı kimi şən və gözəl zənn edərdik.**

# İlahi eşqin sehri...

Ən böyük dərdimiz qələmimizi itirmək, oyuncağımızı sındıran qonşu uşaqlarla dalaşıb küsmək olurdu. Sonrasında qayğılı bir əlin sığalı ilə daha gözəl bir günə başlayırdıq. O zamanlar heç vaxt bitməyəcək düşüncəsi ilə bəzən üzülürdük. Hətta ürəyimizdə bircə tez böyüsəydim deyə Allaha dua edirdik. Anamızı niyə mən belə balacayam deyə məzəmmət də edərdik. O zaman dünyanı yalnız bizim zənn edərdik. Zaman keçdi, bir zamanların səbrsiz uşağı bu günün qayğılı böyüyünə, həm də ruhu cismindən ahıl olan birinə çevrildi. O nağıllar da xəyal oldu, oynadığımız oyunlar da. Uşaqlar heç düşünmür ki, böyüklərin nağılı da ağır olur. Onu daşımağa böyük ürək lazım olur. Biri yoxların bol olduğu böyük nağılları. Nə qədər qəribə səslənsə də, dövr edən dünyamızda, sürətlə keçən zamanın heç kimə və heç nəyə məhəl qoymadan getməsinə, eraların əsrləri əvəz etməsinə baxmayaraq, həyatda doğuluş və vida eyni olur. Fərq isə sadəcə dövrün və cəmiyyətin tələbləri, yazılmayan qanunların hökmranlığı olur. Hər dövrün öz qaydası, öz cəzası bəzən ədalətli, bəzən isə qatı hökmləri. Zamanəsinə boyun əyib tabe olan məzlumları, qanunlara asi olan, ağır cəzalara təlim edilsə də əqidəsini tərk etməyən qəhrəmanları. Ortalama insan ömrünü qorxu, həyəcanla yaşamaqdansa, həyatı yarıda kəsilib qəhrəmancasına əqidəsi uğrunda şəhadət edən insanlar. Haqq dünyasına qovuşsalar da dünyanın içində başqa bir dünya olan əbədiyaşar fatehlər. Fəth etdikləri könüllərin, sehirlədikləri ruh aləmlərinin görünməyən tilsiminin, sevgi odundan saçılan və ətrafı nura qərq edən qığılcımlarının sayəsində eldən-elə, dildən-dilə süzülərək filosofu, mütəfəkkiri olan seçilmişlər. Seçilmiş ifadəsi yad gəlməsin qulağınıza. Çünki yaradanın seçdiyi dahilərin sayı çox olmasa da, gücü-qüvvəsi sonsuz olur. O kəslərin dünyasına zaman, məkan məfhumları tamam yad olur.



Bu il 650 illik yubileyini qeyd etdiyimiz Seyid Əli İmadəddin Nəsimi kimi. Nəsimi də bu həyata məsum bir körpə olaraq gəlmişdi. XIV əsrin qayda-qanunlarına tabe olan bir ailədə böyüyürdü. Doğulub böyüdüyü Şamaxı üsyanlara, tufan və zəlzələlərə şahid olmuşdu. Şah zülmündən bezib, dövrün qaydalarını qıran Xaqanilərin, saray şeiriyyətinə tac olan Fələkilərin yurdunda onların nəfəsindən bəhrələnərək yetişirdi. Yaşı artdıqca el içində şan-şöhrəti də yaranırdı. İlahidən hədiyyəsi olan təbi ilə şah sarayına belə şöhrət çətiri tutmuşdu. Hər kəs onun istedadından danışır, o isə özü üçün tamam fərqli bir yol cizirdi xəyalında. Ruhu azad idi, elə ona görə də cismini qəfəsin əlvan boyalı barmaqlıqlarına həbs etmək istəmirdi, bu qəfəs dünyanın ən dəyərli daş-qaşları ilə bəzədilsə belə. O hürriyyət aşiqi idi. Ömrü boyu bir quş kimi azad qanad çalmaq və əngin səmaları, insan izinə həsrət məkanları fəth etmək istəyirdi. Bu istək onun yolunu Fəzilullah Nəimi ilə kəsişdirdi. Bu tanışlıq zaman içində ataoğul münasibətinə çevrildi. İsa Muğannanın təbirincə desək, o, Nəiminin gözünün nuru oldu. İnsanların qorxulu röyası olan ölüm dərəsi belə ona həyat mənbəyi kimi göründü. Nəsimi təxəllüsünü belə ustadının adına uyğun olaraq qəbul edən ölümsüz filosofun həyatı enişli-yoxuşlu, dağlı-dərəli, bu dünyaya göz açdığı doğma Şamaxı kimi bol zəlzələli və tufanlı oldu. Həyatında tərki-vətənliyi belə dadan söz mülkünün sultanına çoxlu şər, böhtan atıldı. Kimisi sevgisindən, kimi də nifrətindən qəlb evinin qapılarını açdı onun üzünə. Klassik poeziyanın bütün naxışlarına yazdı adını. Bu adı pozmaq, o nümunələri məhv etmək istəyənlərin sayı onlarla oldu. Ancaq bu istəklər sadəcə bir xəyal olaraq zalım beyinləri bəzədi...

Əsrləri arxada qoyan hər dövrün alimi, şairi. Hər sözü, hər kəlməsi bir hikmətli fikir olan ölümsüz şairin ilahi eşqinin odu bütün nifrət yuvalarını xarabalığa çevirdi. Adına Nəsimi deyilən ustadın naмı laməkan oldu. O bütün aləmləri kiçik olan cisminə sığdırdırdı. Zərrəsi olduğu bu cahana isə sığmadı. Şərqdən doğan söz mülkünün günəşi əsrlərin o tayından şəfəq saçdı dünyamıza. Yolu haqq, əqidəsi ruhun azadlığı, qovuşmaq istədiyi ali məqam isə ilahi eşq idi. Həyatı boyunca istəklərinə xilaf çıxmadı. Onun sevgisinin əzəmətini dərk etməyən nadanlar bu zirvənin aşırımlarından uçuruma yıxıldılar.

Sərrafi bəhri qüdrətəm, yaquti kani vəhdətəm

Söyləyən Nəsimi insanı bütün yaradılışların alisi qəbul etdi. O, varlığın və yoxluğun əzəli və əbədi məkanı kimi gördüyü insana tutdu üzünü. Düzlüyə, haqqa səslədi insanlığı. Haqdan dönən insan isə onu dinsiz, cahil kimi qələmə verdi. Həyatı boyu təqiblərə məruz qaldı. Fəqət heç bir hədəyə təslim olmadı. Həyatının son anlarında belə düşmənə göz dağı oldu sinəsi dağlı şair. Dövrün hakim təbəqələrinin qorxulu yuxusu olan şairin fikirləri doğrudan da zaman və məkan tanımadı. Bir zamanlar dinsiz deyə küfr edilən şairin qəzəlləri dünyanı fəth etməyə nail oldu. Adına poemalar, romanlar yazıldı.

Şəninə dahilər söz söylədi. Sovet məngənəsində sıxılanda belə həyatı ekran ömrü qazandı. Onun səhnə şöhrətinin işığı ilə parıldayan aktyorlar dünya miqyasında tanındılar. Qəzəlləri, tuyuqları dünya dillərinə tərcümə edildi. Bu gün musiqi ilə belə bir vəhdətdə həyat tapan qəzəlləri dünya poeziya və musiqi xəzinəsinə qızıl boyalarla nəqş etdi adını. Bu gün Nəsimi irsi onlarla tədqiqata məskəndir. Gələcək nəsillərin belə maraqlı istinad nöqtəsi olacaq Nəsimi irsi dünya durduqca yaşayacaq. Bu dünyanın vəfasına inanmayan şairin böyüklüyü qarşısında qoca dünya belə aciz qalacaq.

*Dünya duracaq yer deyil, ey can, səfər eylə!*
*Aldanma anın alına, andan həzər eylə*
*Bir halə qərar eyləməz əyyal, keçər ömr,*
*Ey əhli nəzər, baxma bu halə, nəzər eylə!*

***Rəfiqə RAFİQQIZI***

# Uşaq qidaları ilə bağlı klinikalarla firmaların qeyri-şəffaf sövdələşmələri...

**Azərbaycanda körpələrini yalnız ana südü ilə qidalandıran analara çox az rast gəlinir. Artıq iş o yerə çatıb ki, uşağını pediatra aparan analar həkimin təyinatı üzrə müalicə ilə yanaşı, həm də körpələrinin qidasını da dəyişməli olurlar. Qısası, altı ay ərzində üç pediatra müraciət etmisənsə, deməli, bu süni qidaların markası üç dəfə dəyişib.**

Pediatrların bir qismi iddia edir ki, klinikalar firmalarla əlbir işləyirlər. Klinikalar firmalardan pul alıb reseptlərə süni yemək adı yazırlar.

Pediatr Aytən İsmayılova sosial şəbəkələrdə süni qidalarla bağlı paylaşımları bir çox pediatrın narazılığına səbəb olub. Belə ki, pediatr bəzi xəstəxanaların adlarını çəkərək bildirib ki, sözügedən özəl klinikaların həkimləri yeni doğulan körpələrin reseptinə, dərman kimi, süni uşaq qidaları yazır və onların gələcəyini zəhərləyirlər. Pediatrın paylaşımına isə adıçəkilən həkimlər etiraz edərək bildiriblər ki, vaxtilə A.İsmayılovanın özü süni uşaq qidasının reklamı ilə məşğul olub və onların adını çəkməsi də reklam xarakterlidir.

Tək pediatrlar deyil, sosial sahə üzrə ekspertlər də bildirirlər ki, klinikalar süni uşaq qidalarının satışı ilə məşğul olan firmalarla müəyyən məbləğ qarşılığında birlikdə çalışırlar.

Mövzu ilə bağlı Aytən İsmayılova ilə də əlaqə saxladıq. A.İsmayılova bildirdi ki, klinikalarda açıq-aşkar süni qida bazarı təşkil edilib: "Mənim yazılarımı reytinqə və ya başqa yerə yozan həkimlərin işlərində ciddi qüsurlar var. Bu qalmaqalı yaradan nenatoloqlardır və bir də Səhiyyə Nazirliyinin nəzdində olan nenatoloq komissiyasının üzvləridir. Narahatdırlar. Guya mən onların işinin nəticəsi yoxmuş kimi təqdim edirəm. Amma reallıq budur ki, onlar firmalarla işləyir və pulun müqabilində uşaqlara süni yeməklər təklif edirlər. Hansısa bir firma xəstəxananın həkimlərinə təklif edir ki, mən sənə bu qədər pul verirəm və bu pulun müqabilində doğum evində olan uşaqların valideynlərinə bizim yeməyi təklif et. Klinika bildirir ki, başqa firma sizdən daha çox pul təklif edib. Bu zaman firma da onlara daha cazibəli təklif irəli sürür ki, mən sənin işlədiyin xəstəxananın digər problemlərini də qarşılayaram, işçilərinə maaş verərəm və hər ay banka sənin hesabına pul qoyaram və s. Beləcə, digər süni uşaq qidasını sıxışdırıb çıxarır və özü daxil olur. Süni uşaq qidasının klinikalara daxil olmasına səbəb puldur. Əvvəllər 2 manat təklif olunurdusa, indi hər pasientə görə 20-30 manat təklif edirlər. Bundan başqa, əvvəllər nenatoloqların uşaq yeməyini reseptə yazmırdılar. İndi isə uşaqlara süni qidanın adını reseptə yazıb verirlər. Süni qidanın fəsadlarını firmalar da, biz pediatrlar da yaxşı bilirik. Mən gündəlik süni qidaların yaratdığı fəsadlarla rastlaşıram. Buna görə də hər dəfə uşaqlara doğulduğu gündən süni qidalar verilməsinə qarşı çıxıram və indi də bu mübarizədəyəm. Buna davam edəcəm, o vaxta kimi ki, onlar bu əməllərindən utanıb geri çəkiləcəklər. Düşünürəm ki, bunların əməllərinə qarşı dövlət müdaxilə edəcək. Bununla bağlı lazımi yerlərə müraciət etmişəm və zərərçəkmiş valideynlərin imzası olan məktub göndərmişəm. Hazırda xəstəxanalarda açıq süni qida bazarı var və bunun qarşısı yalnız dövlət müdaxiləsi olarsa, alına bilər".

Pediatr Mətanət Əliyeva bildirdi ki, uşaqların ana südü ilə qidalanması vacibdir: "Heç bir süni qida ana südünü əvəz edə bilməz. Ümumiyyətlə, "yaxşı uşaq qidası" deyilən bir anlayış yoxdur. Bəzən valideynlər düşünürlər ki, bahalı uşaq qidaları daha keyfiyyətlidir. Elə deyil. İstər baha, istərsə də ucuz uşaq qidalarının tərkibi, demək olar ki, eynidir. Təəssüf ki, bəzi klinikalar, pediatrlar, neantoloqlar süni uşaq qidalarının satışı ilə məşğul olan şəxslərlə əlbir çalışırlar. Beləliklə, həkimlər və neantoloqlar müəyyən faiz qarşılığında yeni doğulmuş uşaqlara mütləq hansısa şirkətə məxsus süni uşaq qidasının verilməsinin vacib olduğunu bildirirlər. Uşağın orqanizmi nədənsə yalnız o qidanı götürürmüş. Belə sözlərlə valideynləri inandırıb süni uşaq qiadalarının satışı ilə məşğul olurlar".



***Aytən İsmayılova:** "Hansısa bir firma xəstəxananın həkimlərinə təklif edir ki, mən sənə bu qədər pul verirəm və bu pulun müqabilində..."*

***Mətanət Əliyeva:** "Bəzi klinikalar, pediatrlar, neantoloqlar süni uşaq qidalarının satışı ilə məşğul olan şəxslərlə əlbir çalışırlar"*

***Eyyub Hüseynov:** "Azərbaycanda uşaq qidalarının distribütorları birbaşa pediatrlarla iş qururlar"*

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirdi ki, rəhbərlik etdiyi qurum ana südü ilə qidalandırmağa dair beynəlxalq təşkilata üzvdür: "Körpə qidaları ilə bağlı Azərbaycanda problem çoxdur. Ümumdünya Səhiyyə Təşkilatının uşaq qidaları ilə bağlı konvensiyası var. Qanuna görə, körpə qidaları çox reklam olunmamalı, satışı konkret yerlərdə, saxlanma rejimi 20 dərəcədən aşağı temperaturda olmalıdır. Azərbaycanda isə bu qanuna əməl edilmir. **Azərbaycanda uşaq qidalarının distribütorları birbaşa pediatrlarla iş qururlar. Bu da qanunsuzdur. Bizə analar şikayət edirlər ki, süni uşaq qidalarının distribütorları onlara zəng edib satdıqları uşaq qidalarını təklif edirlər. Eyni zamanda, uşaq dünyaya gələn kimi uşaqlara xəstəxanalarda artıq süni qida verilir. Bu barədə çox sayda şikayət alırıq".**

***Günel CƏLİLOVA***

№ 196 (4094) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

5 NOYABR 2019-cu il

www.baki-xeber.com

# Süd Yolu qalaktikasında kiçik qara dəlik aşkarlandı



**Alimlər Süd Yolu qalaktikasının ətrafındakı nəhəng ulduzlardan birini müşahidə edərkən kiçik qara dəlik tapıblar.**

Onların apardıqları tədqiqatın icmalı "Science" elmi jurnalında dərc olunub. "AZƏRTAC" bildirir ki, tədqiqatla bağlı hesabatın müəlliflərindən biri olan ABŞ-ın Ohayo Universitetinin astrofiziki Todd Tompson bildirib ki, yeni kəşf bizim qalaktikada əvvəllər astronomlara məlum olmayan kiçikhəcmli qara dəliklərin olduğunu sübut edib. Onun sözlərinə görə, kiçik qara dəliyin aşkar edilməsi bu cür obyektlərin quruluşu və yaranması, həbelə təkamülünü daha yaxşı öyrənməyə imkan verəcək. Astronomların müşahidələri göstərib ki, neytron ulduzlar şəklində fırlanan pulsarlar və ən yüngül qara dəliklər arasında özünəməxsus "uçurum" mövcuddur. Başqa sözlər, orta həcmli ulduz nədənsə çox nadir hallarda qara dəliyə çevrilir və alimlər bizi əhatə edən Kainatda bir dənə də olsun bu cür obyekt aşkar etməyiblər. Bu fakt astrofizikləri vadar edib ki, onlar nəhəng və orta ulduzların məhv olması prosesini yenidən nəzərdən keçirsinlər və onun qara dəliklərin, habelə neytron ulduzların yaranmasına təsirini aydınlaşdırsınlar. Yeni qara dəliyin tapılmasının məhz bu suallara cavab verməkdə faydalı olacağına inanılır. Kiçik qara dəliyin ilk əlamətləri bu ilin sentyabrında LIGO və VIRGO qravitasiya rəsədxanalarının naməlum siqnallar qəbul etməsi ilə aşkar olunub. Həmin siqnallar Xərçəng bürcündə yerləşən və Yerdən 1,6 milyard işıq ili aralıda olan uzaq qalaktikadan gəlib. Bu əlamətləri araşdıran Tompson və həmkarları daha yaxında olan, hətta yerüstü və kosmik rəsədxanaların da görə biləcəkləri yaxın kosmik obyekti kəşf ediblər. Daha bir maraqlı fakt aşkar edilib: əgər qara dəlik kosmosda tənha deyil, bir və ya bir neçə ulduzun əhatəsində yerləşirsə, onun cazibə qüvvəsi "sayrışan" parlaq işıq spektri yaradır. Məhz bu səbəbdən onlar Yer kürəsində görünür və ani yox olur. Alimlər on mindən çox ulduzu əhatə edən bu müşahidələri qalaktikamızın təkamülünü öyrənən APOGEE layihəsi çərçivəsində aparıblar. Ulduzların infraqırmızı diapazonda parlaq işıqlarının təhlili onların ölçüləri və çəkiləri barədə məlumat əldə etməyə imkan verib.

## Elan

Şəki rayonu, Baş Layısqı kənd sakini Xəlilov Qnyaz Təmraz oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 156 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Aşağı Layısqı kənd sakini Məmmədov Adil Sədi oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 0029 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Əliyev Əli Kamal oğluna məxsus, Bakı şəhəri, Xəzər rayonu, 3 Nəli Zeytun savxozunda yeləşən fərdi yaşayış evinin qeydiyyat № 24507, inventar №119 qeydiyyat vəsiqəsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

Adıgözəlov Fuad Xalid oğluna Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Qurbanov Mövsüm Dövlət oğluna məxsus, Bakı şəhəri, Nəsimi rayonu, Vidadi küçəsi, ev №185, mənzil №42 ünvanının MA №0281090 HDQHDƏDR-dən çıxarışı itdiyi üçün etibarsız sayılır.

Quliyev Nürəddin Qaryağdı oğluna Cəbrayıl RHK tərəfindən verilmiş hərbi bilet və Qarabağ müharibəsi veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Sultanov Novruz Baba oğlunun adına, Bakı şəhəri, Xəzər rayonu (Əzizbəyov), Buzovna qəsəbəsi, R.Axundov küçəsi, 0.12 ha torpaq sahəsində yerləşən 2 mərtəbəli evin 0028735 nömrəli çıxarışı itdiyi üçün etibarsız sayılır.

Dünyamalıyev İlqar Rahib oğluna Daxili İşlər Nazirliyi tərəfindən verilmiş Qarabağ müharibəsi veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Əliyev İman Vaqif oğluna Qərbi Kaspi Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## "Azercell"in "Mobil Diş Klinikası" ödənişsiz müayinələrin təşkilini davam etdirir

**Ölkənin rəqəmsal həllər təqdim edən lider operatoru "Azercell Telekom" MMC həm də Korporativ Sosial Məsuliyyət proqramlarının daimi təşəbbüskarı və iştirakçısı kimi tanınır.**

"Mobil Diş Klinikası" şirkətin sosial əhəmiyyət daşıyan layihələrindən biridir. Fəaliyyəti boyunca 4 mindən çox insana yardım etmiş klinika oktyabr ayında Qaradağ rayonu, Sahil qəsəbəsinə səfər edib. Bir ay davam edən müayinə və müalicə tədbirlərindən aztəminatlı və məcburi köçkün ailələrindən olan uşaqlar, habelə sağlamlıq imkanları məhdud körpələr yararlanıb. Ümumilikdə,118 uşağa tibbi yardım göstərilib.

Azərbaycandakı əksər uşaq evlərində stomatoloji kabinetin olmamasını nəzərə alan "Azercell Telekom" MMC "Mobil Diş Klinikası"nı ən müasir tibbi avadanlıqla təchiz edib. Klinikanın əsas hədəfi internat məktəblərinin şagirdlərini, valideyn himayəsindən məhrum uşaqları və qaçqın düşərgələrində məskunlaşmış körpələri müayinə və müalicə etməkdir.

Qeyd edək ki, bütün müayinə və müalicə tədbirləri "Azercell"in dəstəyilə "Xəzər Qayğıkeşlik Layihəsi" İctimai Birliyi tərəfindən həyata keçirilir.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.





**Qoç** - Ünsiyyətdən qaçırsınız, əsəbisiniz, hətta həmfikirlərinizlə də ortaq nöqtəyə gələ bilmirsiniz. Yox yerdən narazılıqlar yaranır və saatlar keçdikcə böyüyür, ciddiləşir. Şəxsi həyatınızda gözlənilməz dəyişikliklər mümkündür.



**Buğa** - Tamamilə aydındır ki, uzun bir zamanı fantaziya adlanan gözəl bir ölkədə keçirmisiniz. İndi də sanki sizi oradan deportasiya ediblər və real aləmin çatışmazlıqları ilə barışmalısınız.



**Əkizlər** - Uğurlu, yeni imkanlar və qeyri-adi təsadüflərlə dolu gündür. Həyatınız göz önündə dəyişir və dəyişikliklərin mahiyyəti məhz sizdən asılıdır. Yeni kəşflər edə bilərsiniz. Uzaqdan aldığınız xəbərlər xoş olacaq.



**Xərçəng** - Gizlənin, kimsənin gözünə görünməyin. Kim sizi görsə, istər-istəməz bir pislik etmək fikrinə düşəcək. Nə etməli, bu gün də belə gətirib. Pul xərcləmək, iri əşyalar almaq məsləhət deyil.



**Şir** - Mürəkkəb danışıqların aparılması üçün münasib gündür. Özünüzə tərəfdaş kimi görmək istədiyiniz rəqibiniz varsa, bu gün onunla mütləq söhbət etməyə çalışın. Bu gün onu görüşə çağırın.



**Qız** - Uğurlu gündür. Xoş sürprizlər gözləyin. Bəxtinizə inanın: məhz onun sayəsində bir sıra çətin vəziyyətdən asanlıqla çıxa biləcəksiniz. Həmkarlarınızla münasibətləriniz düzəlir, rəhbərliyin və yaxud başqa nüfuzlu bir şəxsin dəstəyini alacaqsınız.



**Tərəzi** - Darıxdırıcı, boz gündür. Şücaət göstərmək, macəralara qoşulmaq, heç olmasa, şəraiti dəyişmək arzusundasınız. Münaqişədən qaçmağa yalnız sizin cazibədarlığınız kömək edir.



**Əqrəb** - Adi günlərdən biridir, elə ən yaxşı cəhəti də sakitliyidir. Bu ərəfədə başladığınız işləri yekunlaşdıra bilərsiniz, kimsə sizi işinizdən ayıraraq diqqətinizi yayındırmayacaq. Bu gün adam arasına çıxmaq, tanışlıqlar qurmaq sizin üçün faydalıdır.



**Oxatan** - Uğur bu gün sizinlədir. Qarşınıza yeni məqsədlər qoyun, onları mütləq əldə edəcəksiniz, heç şübhəniz olmasın. Onlar böyük həvəs və entuziazmla sizin göstərişlərinizi yerinə yetirəcəklər.



**Oğlaq** - İşlər o qədər də rəvan getmir. Xeyli mürəkkəb, birmənalı olmayan situasiyalar yaranır və onlardan çıxış yolunu tapmaq o qədər də asan olmur. Yalnız öz gücünüzə güvənməli olursunuz, bu isə vəziyyəti bir qədər də qəlizləşdirir.



**Dolça** - Uğursuzluq nə qədər çoxalırsa, siz də bir o qədər şansınıza güvənirsiniz. Yalnız öz gücünə güvənən, zəhmət çəkməyə hazır olan Dolçalar yaxşı nailiyyətlər əldə edəcəklər.



**Balıqlar** - Etiraf edin ki, imkanlarınız hüdudsuz deyil. Əgər bunu qəbul etsəniz, bir çox gərəksiz işlərdən, əziyyətlərdən yaxa qurtara bilərsiniz. Əksinə, inad göstərsəniz, həm vaxtınızı, həm də gücünüzü itirəcəksiniz.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Dünyada həyatın olmadığı yer aşkar edildi



**Fransalı alimlər dünyada həyatın olmadığı yeri aşkar ediblər.**

"Ölkə.az" bildirir ki, bununla bağlı araşdırma "Nature Ecology & Evolution" jurnalında nəşr olunub. Alimlər Efiopiyanın Dallol vadisində heç bir bakteriyanın olmadığını müəyyən ediblər. Tədqiqatçılar bu vadidə suyun tərkibində isti, turşu (pH ~ 0), həmçinin çox miqdarda maqnezium olan şoran məhlulun olduğunu öyrəniblər. Alimlər qeyd edir ki, suyun belə bir tərkibi canlı hüceyrələrin məhv olmasına səbəb olur.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.